

XƏZƏR XƏBƏR

KHAZAR-REVIEW

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 345 Noyabr 2015

khazar-review.khazar.org

AYLIQ DƏRGİ

ISSN 2218-2772



Professor LOTFI ZADEH

"AVRASİYA ƏFSANƏSİ" AMERİKADA







İÇİNDƏKİLƏR

"Avrasiya əfsanəsi" Amerikada 4
Azərbaycan Dövlət İqtisad Universiteti ilə Xəzər Universiteti arasında memorandum imzalandı 14
President Meets With International Students 15
Hamlet İsaxanlının Gürcüstana işgüzar səfəri 16
Görkəmli alim professor Əjdər Ağayevin açıq dərsi 19
"Dərsliklərin hazırlanması və qiymətləndirilməsi" təlim kursu 22
Əcnəbi tələbə-müəllim heyəti Qubaya səfər etdi 30
Tələbə informasiya sisteminin təqdimatı 35
NDU xəbərləri 38
Instructor of Khazar University Presented and Published a Technical Paper in SPE Conference 48
Gənc tarixçilər "Konservasiya, restavrasiya və arxeoloji ərazilərin idarəsi" adlı təlimdə 58
Tacuсой Низами. Самый труднопереводимый и самый любимый 62
Qabrielle Stravelli Xəzər Universitetində 66
Giorgi Leonidze. Dilək ağacı 70
Osip Mandelştam. Şeirlər 74
Mehriban Sultan. Vətəndə vətən həsrəti 76

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Kıyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Marta Lauri

Rəssam:
Mir Rafiq Əbdürəhimov

Kompüter tərtibatçısı:
Nigar Aydəmirova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1998

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Kıyaz Aslan

Editor of English Texts:
Martha Lawry

Design by:
Mir Rafig Abdurahimov

Computer graphics:
Nigar Aydemirova

Photo:
Multimedia Centre

"AVRASİYA ƏFSANƏSİ" NƏDİR ?

Avrasiya Akademiyası üzvlərinə və birinci növbədə onun beş təsisçisinə təqdim olunmaq üçün nəzərdə tutulan, böyük zövqlə hazırlanmış mükafatın – kubokun simvolik adıdır. Təsisçi H. İsaxanlının şərtləri və tövsiyəsi əsasında tanınmış rəssam, xalça ustası Afaq Kərimovanın layihəsi əsasında Şanxayda hazırlanmış kubok bilik, mədəniyyət, elm, müdriklik təmsil edən milli və müasir atributları birləşdirir. Kubok iki hissədən-



şəffaf büllur dekorativ vaza və yuxarıda sadalanan atributları əks etdirən qızılı metal başlıqdan ibarətdir. Hündürlüyü -38 sm, diametri - 8 və 12 sm olan kubokun metal hissəsi vazanın üzərini örtən təsviri sənət rəmzi kimi palitraya sıxılmış boyaları xatırladan müxtəlif rəngli daşlarla bəzədilib.

Onun üzərində elm və təhsilin atributu kimi varaqları açılmış qanadlı kitab, musiqi aləminin simvolu kimi cəng-lira təsvir edilib. Elementlərin hər birində bəzən stilizə olunmuş milli ornamentlər işlənib. Qum saatı formasında hazırlanmış vazanın daxilində qızılı qum süzülür. Qum saatı funksiyasını daşıyan kubokun üzərində cızılmış butaların çərxi istiqamətdə gəlimli - gedimli olması və yenidən təkrarlanması əbədiyyətin rəmzi mənası kimi işlənib.

"AVRASİYA ƏFSANƏSİ" AMERİKADA

***2015-ci il noyabr ayının ilk günlərində** Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı və onun rəhbərliyi altında çəkiliş qrupu ABŞ-ın Kaliforniya ştatına səfər etdi. Səfərin məqsədi Berkli şəhərində yaşayan məşhur elm adamı, əslən azərbaycanlı olan **Lütfi Zadəyə** təsisçiləri arasında olduğu Avrasiya Akademiyasının üzvlük mükafatını – **"Avrasiya Əfsanəsi"**ni və uyğun diplomu təqdim etmək idi.*

Kaliforniya Berkli Universitetinin (University of California at Berkeley) professoru Lütfəli Rəhim oğlu Əsgərzadə (1921) Azərbaycanda yaxşı tanınır, Amerikadakı Azərbaycan diaspor təşkilatlarının da fəxri sədridir. O, süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, bir çox xarici ölkə akademiyalarının üzvüdür. Lütfi Zadə çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülüb, medallarla təltif edilib. Onlarla xarici dövlətin təhsil və elm müəssisələrinin fəxri doktorudur. Kaliforniyanın Berkli şəhərində **"İnformasiya Texnologiyaları üzrə Zadə İnstitutu"** yaradılıb.



Əslində, Lütfi Zadə, digər təsisçilər kimi, Avrasiya Akademiyasının üzvlərinə veriləcək **"Avrasiya Əfsanəsi"** adlı gözəl kubok-mükafatı almaq üçün Bakıya dəvət edilmişdi. Ancaq yaşı və səhhətinə görə təyyarə ilə uzaq məsafəyə səyahət etməsi mümkün olmadığından Lütfi Zadə professor Hamlet İsaxanlını Amerikaya dəvət etdi. Dəvəti məmnuniyyətlə qəbul edən qarşı tərəf vaxt itirmədən okeanın o biri tayına yollandı. Noyabrın 5-də Lütfi Zadə qonaqları öz evində qarşıladı.



Görüş çox səmimi keçdi. Demək olar, bütün ömrünü Amerikada keçirməsinə baxmayaraq, ev sahibi qonaqlarına Azərbaycan ənənələrinə uyğun olaraq çay süfrəsi açdı. Söhbətə başlayan H. İsaxanlı dəvət üçün təşəkkür etdikdən sonra elm və mədəniyyətin inkişafı naminə yaradılmış Avrasiya Akademiyasına verdiyi dəstəyin önəmini ifadə edərək, akademiyanın **"Avrasiya Əfsanəsi"** kubokunu və diplomunu **Lütfi Zadəyə** təqdim etdi. Diqqətə görə minnətdarlığını bildirən akademik bu ideyanı çox bəyəndiyini və qurumun inkişaf edərək, fəaliyyət sahəsinin genişlənməsini təmənna etdiyini söylədi.





Söhbət zamanı ev sahibi Amerikada erməni lobbisinin çox güclü olduğunu, Qarabağ probleminin həll olunmamasına üzüldüyünü bildirdi. Sonda Lütfi Zadə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dəvəti ilə 2011-ci ildə Azərbaycana gəldiyini, Bakının inkişaf etmiş gözəl bir şəhər olduğunu xatırlayaraq, həmyerlilərimizə səmimi salam göndərdi:"Bakıya salam, sevgi və sayğımı çatdırın".

Beləcə, birinci "Avrasiya əfsanəsi" ilk olaraq Amerikadakı sahibinə qovuşdu.





"Bakıya salam, sevgi və sayğımı çatdırın"

KUBOK KİMLƏRƏ VERİLƏCƏK ?



"Avrasiya Əfsanəsi" kuboku





Üzeyir Hacıbəyli adına medal

Avrasiya Akademiyası yaradılması ideyası 2012-ci ildən etibarən barəsində aparılan çoxlu müzakirə və məsləhətləşmələr nəticəsində meydana gəldi. Təsisçilərin tərkibi haqqında yekun qərar qəbul edildi.

Lütfi Zadə ilə yanaşı **Osmanlı İmperiyası tarixinin əsas tədqiqatçılarından biri olan Halil İnalcık**, çox tanınmış **neyrocərrah Mahmut Gazi Yaşargil, Azərbaycan Respublikasının xalq artisti bəstəkar Arif Məlikov, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı** təsisçilərdir.

Avrasiya Akademiyası görkəmli elm və sənət adamlarının, mütəxəssislərin və intellektualların, yaradıcı sənətkarların birliyidir, qeyri-siyasi və gəlir güdməyən cəmiyyətdir. Avrasiya Akademiyasının məqsədi elm, sənət və insan inkişafına xidmət edən sahələrdə tədqiqat və yaradıcılıq işlərinin aparılmasına kömək etmək, mövcud vəziyyəti təhlil etmək, hesabatlar hazırlamaq və dəyərləndirmələr aparıb ictimaiyyətə təqdim etməkdən ibarətdir. Avrasiya Akademiyası təbiət elmləri və texnologiya; humanitar və sosial elmlər; ədəbiyyat, incəsənət və musiqi kimi sahələri əhatə edir. Avrasiya Akademiyasına üzv seçilmək elm və sənət adamlarının qazanacağı yüksək şərəfdir. Ciddi elmi kəşflər etmiş, yüksək sənət əsərləri yaratmış, mütəxəssis kimi böyük uğurlar qazanmış insanlar Avrasiya Akademiyasının üzvü seçilə bilərlər. Üzvlər məhdud sayda olacaq. Təsisçilər arasında aparılan uzun müzakirələr üzvlərin sayının 30 ətrafında olacağından xəbər verir. Yəni, eyni zamanda ancaq 30 ətrafında üzv seçiləcək, yeni üzvlər dünyasını dəyişən üzvlərin yerinə seçiləcək. Fransız Akademiyasına bənzədilsə (onun eyni zamanda 40 üzvü olur), Avrasiya Akademiyasına seçilənləri "ölməzlər" və ya "Avrasiya ölməzləri" adlandırmaq olar.

Avrasiya Akademiyası öz xüsusi mükafatlarını və medallarını təsis edib, layiq hesab etdiyi şəxsləri və qurumları təltif edir. 2014 - 2015 - ci illərdə akademiyanın mükafat və medallarının hərtərəfli planları dəqiqləşdikdən sonra 2015-ci ildə bütün atributlar müəyyənləşdi.

Aşağıdakı medallar hazırlandı:

Üzeyir Hacıbəyli adına medal elm, incəsənət, musiqi, mədəniyyət sahəsində xüsusi müvəffəqiyyətlər qazanmış və Avrasiya Akademiyası Şurası tərəfindən bəyənilmiş elm, musiqi, incəsənət xadimlərinə verilir.

Nəsirəddin Tusi adına medal dəqiq və tətbiqi elmlər, mədəniyyət sahələrində, **Mirzə Fətəli Axundzadə adına medal** ədəbiyyat, teatr, kino sahələrində, **İbn Sina adına medal** fəlsəfə, təbiət elmləri, tibb sahələrində, **İbn Xəldun adına medal** isə tarix və humanitar elmləri sahələrində böyük müvəffəqiyyətlər qazanmış görkəmli şəxslərə verilir.

Avrasiya Akademiyası müəyyən sayda üzvlərdən ibarət Şura tərəfindən idarə olunur. Şuranın qərarları Akademiyanın nizamnaməsinə uyğun olaraq seçilən Prezident və vitse-prezidentlər tərəfindən xüsusi komitələr vasitəsilə həyata keçirilir. Akademiyanın nizamnaməsi qurucu üzvlər tərəfindən hazırlanıb, təsdiq edilir.

2012-ci ildən aparılan məsləhətləşmələr və hazırlıq işlərinin nəticəsi olaraq 2015-ci ildə Avrasiya Akademiyası tam fəaliyyətə başladı. Avrasiya Akademiyasının rəsmi açılış mərasimi 2016-cı il yanvarın sonunda keçiriləcək.






Nəsirəddin Tusi adına medal



Mirzə Fətəli Axundzadə adına medal



İbn Sina adına medal



İbn Xəldun adına medal



EURASIAN LEGEND IN AMERICA

In early November 2015, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made a trip to California (USA) along with a film crew. The goal of the trip was to visit Professor Lotfi Zadeh, a well-known scholar of Azerbaijani origin living in Berkeley, and present to him the Eurasian Legend award which is given to the founding members of the Eurasian Academy along with its accompanying certificate.

Lotfi Zadeh (whose real name is Lutfeli Rehim oghlu Esgerzade, b.1921), a professor at University of California, Berkeley, is well known in Azerbaijan. He is an honorary chairman of the Azerbaijani diaspora in America. He is the father of the theory of fuzzy logic in the field of artificial intelligence and is a member of the Academies of many foreign countries. He has received many awards and medals from respected societies and foundations. He is an honorary doctor of dozens of foreign countries and public organizations. He founded the Zadeh Institute for Information Technologies at UC Berkeley.

Actually, Lotfi Zadeh was invited to Baku to receive the Eurasian Legend award given to the founding members of Eurasian Academy, but he was unable to make the long journey because of his age and for health reasons, so he invited Professor Hamlet Isaxanli to America instead. Accepting the invitation with pleasure, Prof. Isaxanli soon set out for California. Lotfi Zadeh met with the guests in his home on November 5th.





"PASS ALONG MY GREETINGS AND LOVE TO BAKU"

The meeting was very sincere. Despite the fact that Prof. Zadeh has spent most of his life in America, he provided a traditional Azerbaijani-style tea for the guests. Prof. Isaxanli started the conversation by thanking Prof. Zadeh for the invitation. Then, expressing the importance of supporting the Eurasian Academy, which was established for the development of sciences and arts, he presented the Eurasian Legend trophy and certificate to Prof. Zadeh. The Professor expressed his gratitude and said that he really liked the idea of the Academy and expected that it would increase its sphere of operations as it grew. During their conversation, the host mentioned the strength of the Armenian lobby in the USA and that he was very sorry the Karabakh problem has not yet been solved. Then Lotfi Zadeh said he had visited Azerbaijan in 2011 upon the invitation of Ilham Aliyev, President of the Azerbaijan Republic. He shared fond memories of the beautiful, developed city of Baku, and he sent his warm greetings, saying "pass along my greetings and love to Baku." Thus, the first Eurasian Legend award was united with its rightful owner in America.

WHAT IS THE EURASIAN LEGEND?

The Eurasian Legend is the symbolic name of an award in the form of a trophy that was custom-made to be given to the members of Eurasian Academy, starting with its five founders. It was prepared in Shanghai based on the plans of well-known textile artist Afag Karimova, who designed the trophy according to the recommendations of founder Hamlet Isaxanli. The trophy includes symbols of knowledge, culture, science, and wisdom as well as modern attributes. It consists of two sections: a clear crystal decorative vase and a gold-colored metal topper reflecting numerous symbols.




It is shaped symmetrically with a height of 38 cm, a width (diameter) of 8 cm in the vase and 12 cm at the top. The topper is shaped like an artist's palette, on top of which semi-precious stones of different colors have been affixed in order to represent squeezed-out oil paints as a symbol of fine arts. On top, it includes symbols of science and education such as an opened, winged book and a harp-like stringed musical instrument. Each element is made of stylized national symbols. The inside of the vase is a functional hourglass. There are "buta" (teardrop/paisley) figures on the upper and lower parts of the crystal vase to represent the temporal nature and repetition of eternity.

WHO WILL THE TROPHY BE GIVEN TO?



Eurasian Legend trophy





Uzeyir Hajibeyli Medal

The idea to establish Eurasian Academy was the result of discussions and consultations starting in 2012. A final decision was made about who would be included in the list of founding members.

Besdies **Lotfi Zadeh, they include Halil Inalcik,** one of the top scholars of **Ottoman Empire history; famous neurosurgeon Mahmut Gazi Yasargil; Arif Melikov, composer and People's Artist of the Azerbaijan Rebublic;** and **Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.**

Eurasian Academy is a non-political and non-profit society for distinguished scholars, artists, specialists and intellectuals. The vision of Eurasian Academy is to provide assistance for research and creative works in academic and artistic fields as well as those serving human development; to analyze the current situation in these fields; and to present reports and evaluations to the public. Eurasian Academy comprises fields such as science and technology; humanities and social sciences; literature, fine arts and music.

It is a great honor for a scholar or artist to earn membership into Eurasian Academy. Those who have made significant scientific discoveries, created momentous works of art, or accomplished noteworthy successes as specialists in their fields may be elected to membership in Eurasian Academy. The number of members will be limited. After long discussions among the founding members, a decision was made to limit the membership to 30 individuals. This means that 30 people can be members of the Academy at any given time, and deceased members' positions will be given to new members. This system is similar to the French Academy (which can have 40 members at a time); however, the members of Eurasian Academy are referred to as "immortals" or "the undying Eurasians."

Eurasian Academy establishes its own special awards and medals and bestows them upon the individuals and organizations it deems worthy of such honors. After planning out the medals and awards in 2014-2015, final decisions were made and medals were prepared in 2015.

The following medals were produced:

The **Uzeyir Hajibeyli Medal** is awarded to scholars, musicians, and artists selected by the Eurasia Academy board who have made significant achievements in the fields of academics, the arts, music, or culture. The **Nasiraddin Tusi Medal** is for the fields of applied science or culture; **Mirza Fatali Akhundov Medal** for the fields of literature, theater and film; **Ibn Sina Medal** for philosophy, life sciences and medicine; and **Ibn Khaldun Medal** for history and social sciences.

Eurasian Academy is managed by a board consisting of a determined number of members. The decisions of the board are implemented by the President and Vice Presidents, who are elected according to Academy bylaws, by means of special committees. The Academy bylaws are prepared and ratified by the Founding Members. As a result of consultations since the year 2012, the Eurasian Academy fully began operation in 2015. The official opening ceremony of Eurasian Academy will be held at the end of January 2016.



"PASS ALONG MY GREETINGS AND LOVE TO BAKU"



Nasiraddin Tusi Medal



Mirza Fatali Akhundov Medal



Ibn Sina Medal



Ibn Khaldun Medal







AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ İLƏ XƏZƏR UNİVERSİTETİ ARASINDA MEMORANDUM İMZALANDI

Noyabrın 3-də Azərbaycan Dövlət İqtisad Universitetində (ADİU) həmin universitetlə Xəzər Universiteti arasında elmi-texniki əməkdaşlıq memorandumunun imzalanma mərasimi keçirildi. Mərasimi giriş sözü ilə ADİU-nun rektoru, professor Ədalət Muradov açdı. O, mərasimə toplanan bütün qonaqları salamladı və Azərbaycan Dövlət İqtisad Universitetinin Azərbaycanın iki aparıcı universiteti – Xəzər Universiteti və Qafqaz Universiteti ilə rəsmi memorandum imzalayacağını elan etdi, universitetlər haqqında geniş məlumat verdi. Xəzər Universitetinin rektoru, professor Hassan Niknafs çıxış edərək, İqtisad Universitetində təşkil edilmiş mərasimə görə universitetin rəhbərliyinə təşəkkürünü bildirdi və bu cür görüşlərin hər iki universitet üçün əhəmiyyətli olacağına ümüdvar olduğunu bildirdi.

Sonda rektorlar memorandumu imzaladılar. İmzalanma mərasimində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli iştirak etdilər.

Mərasimdən sonra İqtisad Universiteti ilə tanışlıq oldu. Professor Hamlet İsaxanlı universitetin radiosuna müsahibə verdi. Xatirə şəkilləri çəkildi.



PRESIDENT MEETS WITH INTERNATIONAL STUDENTS

October 22, Dr. Hassan Niknafs, the new President of Khazar University, met with international students who joined Khazar University in the current academic year.

The meeting took place at Dunya School, an affiliate of Khazar University. The meeting participants included international students who study full-time at bachelor, master and PhD levels from Afghanistan, Barbados, Belarus, Belgium, Indonesia, Czech Republic, Nigeria, and Russia. Participants also included exchange students from the Netherlands.

Students shared their academic and social experience in Azerbaijan so far and expressed their concerns and hopes for the future. Students took a tour of Dunya School and were familiarized with its departments, laboratories, sports complex, and other resources.





HAMLET İSAXANLININ GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ

GÜRCÜSTANIN TƏHSİL VƏ ELM NAZİRLİYİNDƏ

Noyabrın 13-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Tbilisi şəhərində Gürcüstanın Təhsil və Elm Nazirliyində oldu və nazir müavini Giorgi Şarvaşidze ilə görüşdü.

Görüşdə tərəflər Gürcüstan və Azərbaycan respublikalarında təhsilin vəziyyəti haqqında müzakirə və müqayisəli təhlillər apardılar. Gürcüstanda yaşayan azərbaycanlı əhalinin təhsil problemləri, məktəblərin vəziyyəti, keyfiyyətli mütəxəssislərin hazırlanması məsələlərinə toxunuldu. Təhsil problemlərinin həllində hər iki ölkənin təhsil nazirliyinin əməkdaşlığının vacibliyi qeyd edildi və bu işdə Xəzər Universitetinin rolu vurğulandı.

FOUNDER VİSİTS MİNİSTRY OF EDUCATİON AND SCİENCE OF GEORGİA

On November 13, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, met with Giorgi Sharvashidze, Deputy Minister of Education and Science of Georgia, in Tbilisi. At the meeting, the parties discussed the status of education in Georgia and Azerbaijan and made a comparative analysis. They also talked about the education of the Azerbaijani population in Georgia, the state of schools, and the preparation of highly-trained personnel. They noted the importance of the participation of both countries' ministers of education in order to fix educational problems as well as Khazar University's role in this process.

LİTVA TƏHSİL VƏ ELM NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞ

Noyabrın 13-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Tbilisi şəhərində Litva Respublikasının Təhsil və Elm nazirinin müavini Genoveita Krasauskiene və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Görüşdə Azərbaycan və Litva arasında təhsil üzrə əməkdaşlıq ideyaları müzakirə olundu, Xəzər Universiteti ilə Litva ali təhsil müəssisələri arasında əlaqəni gücləndirmək məsələsinə toxunuldu.

FOUNDER MEETS WİTH VİCE MİNİSTER OF EDUCATİON AND SCİENCE OF LİTHUANİA

On November 13, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, visited Tbilisi, Georgia and met with Genoveita Krasauskiene, Vice Minister of Education and Science of the Republic of Lithuania, as well as members of her delegation. They discussed ideas for partnership in education between Azerbaijan and Lithuania as well as ways to strengthen relations among the higher education institutions of both countries.

GÜRCÜSTANIN QAFQAZ UNİVERSİTETİNDƏ

Noyabrın 13-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Tbilisi Qafqaz Universitetinin rektoru Kaxa Şengelia ilə görüşdü. İki universitet arasında əməkdaşlığın daha da gücləndirilməsi məsələsi müzakirə edildi.

FOUNDER VİSİTS CAUCASUS UNİVERSİTY İN GEORGİA


On November 13, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, visited Caucasus University in Tbilisi and met with Rector Kakha Shengelia. They discussed further strengthening of the partnership between the two universities.

HAMLET İSAXANLI GÜRCÜSTAN MİLLİ ELMLƏR AKADEMİYASI BÜLLETENİNİN REDAKSİYA HEYƏTİNƏ DAXİL EDİLMİŞDİR

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Gürcüstan Milli Elmlər Akademiyası bülleteninin Redaksiya heyətinə (2015-ci ilin 2 - ci sayından) daxil edilmişdir. Bülleten Tiflisdə "Georgian Academy Press" (Gürcüstan Akademiyası Nəşriyyatı) tərəfindən çap olunur.

KHAZAR UNIVERSITY FOUNDER INCLUDED IN GEORGIAN NATIONAL ACADEMY OF SCIENCES BULLETIN EDITORIAL COUNCIL

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, has been included as a member of the Editorial Council of the Georgian National Academy of Sciences Bulletin (beginning with vol. 9, no. 2, 2015). The Bulletin is published by Georgian Academy Press.



TƏHSİL NAZİRİ İLƏ GÖRÜŞ

Noyabrın 17-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Təhsil naziri Mikayıl Cabbarovla görüşdü. Görüşdə "Dünya" məktəbi və onun İB diplom proqramı, Gürcüstan azərbaycanlılarının təhsil problemi, Xəzər Universitetinin inkişafı və qarşıda duran problemlər (o cümlədən, tələbə qəbulu, yeni ixtisasların açılması, PhD proqramlarının təşkilati və maliyyə məsələsi, beynəlxalq layihələrin hüquqi qeydiyyatı, Təhsil Nazirliyinin sifarişi ilə Xəzər Universitetində həyata keçirilən təlim proqramları, xarici tələbələrin viza prosedurlarının sadələşdirilməsi, kurikulum inkişafı və ikili dərəcə proqramları, "dövlət imtahanları" adlı imtahanların aradan qaldırılması, mənfəət vergisinin uyğunsuzluğu, məzunluq diplomlarının vaxtında verilməsi kimi məsələlər) müzakirə olundu.



DƏRSLİKLƏRİN HAZIRLANMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ TƏLİM KURSU İLƏ ƏLAQƏDAR MÜZAKİRƏLƏR

Oktyabrın 26-da Xəzər Universitetində Təhsil Nazirliyinin sifarişi ilə həyata keçiriləcək ümumtəhsil pilləsində fənn kurikulumlarına uyğun "Dərsliklərin hazırlanması və qiymətləndirilməsi üzrə təlim kursu" layihəsinin icrası prosesi ilə əlaqədar layihə heyəti universitetin rəhbərliyinə görülən hazırlıq işləri barədə hesabat verərək, təlimlərin təşkili prosesini geniş heyətdə müzakirə etdi. Görüşdə layihə rəhbəri, Təhsil fakültəsinin dekanı Elza Səmədova təlim qrupları, dərs cədvəlləri, beynəlxalq təlimçilər və təlim materiallarının hazırlanması prosesi, layihənin davamlılığı istiqamətində həyata keçiriləcək fəaliyyət planı haqqında məlumat verdi.

Müzakirədə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, fakültə dekanları, departament və mərkəz rəhbərləri, əlaqədar kafedraların müəllimləri iştirak etdilər.

Layihə çərçivəsində təlimlərin 2015-ci il noyabrın 13-dən 22-dək riyaziyyat-informatika, təbiət elmləri, tarix-coğrafiya, Azərbaycan dili və ədəbiyyatı, xarici dillər qrupu olaraq, xarici ölkələrdən dəvət olunan mütəxəssislərin iştirakı ilə keçirilməsi nəzərdə tutuldu.





GÖRKƏMLİ ALİM PROFESSOR ƏJDƏR AĞAYEVİN "AZƏRBAYCAN İCTİMAİ - PEDAQOJİ FİKRİNDƏ ŞƏXSİYYƏT PROBLEMİNİN QOYULUŞU" MÖVZUSUNDA AÇIQ DƏRSİ

4 NOYABR 2015

Xəzər Universiteti Təhsil departamentinin təşkilatçılığı ilə universitetin Mərmər salonunda görkəmli alim, pedaqoji elmlər doktoru, əməkdar müəllim, Azərbaycan Təhsil Şurasının sədri, Prezident təqaüdçüsü professor Əjdər Ağayevin **"Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyət probleminin qoyuluşu"** mövzusunda açıq dərsi keçirildi. Açıq dərsdə universitetin müəllim və əməkdaşları, tələbələr iştirak edirdilər.

Tədbiri Təhsil fakültəsinin dekanı, fəlsəfə doktoru Elza Səmədli açaraq, tanınmış pedaqoqu auditoriyaya təqdim etdi. Ə. Ağayev geniş mühazirəsində problemin müxtəlif aspektlərinə toxunaraq, mövzunu ətraflı şərh etdi və tələbələrin suallarını cavablandırdı. Sonda alim kitablarını Təhsil departamentinə hədiyyə etdi və xatirə şəkilləri çəkildi.

MASTERCLASS BY WELL-KNOWN PROFESSOR AT KHAZAR

On November 4th, Professor Dr. Ajdar Aghayev, Honored Educator, Chairman of Azerbaijan Educational Board, and Presidential Scholar, presented a masterclass on "The Presentation of the Issue of Personal Identity in Azerbaijani Public Education." University faculty and staff members, instructors and students participated in the masterclass, which was held in the Marble hall of Khazar University's Neftchilar campus.

Dr. Elza Semedli, Dean of the Khazar University School of Education, opened the event and introduced the guest to the audience. A.Aghayev made a presentation explaining various aspects of his thesis above, including a detailed explanation of the theme. He also answered questions. At the end of the event, the scholar was given presents from the School of Education and group photos were taken.





MÜHƏNDİSLİK VƏ TƏTBİQİ ELMLƏR FAKÜLTƏSİNDƏ BİRİNCİ İL TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ



Oktyabrın 23-də Mühəndislik və tətbiqi elmlər fakültəsinin birinci il tələbələri ilə görüş keçirildi. Görüşdə Xəzər Universitetinin rektoru, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı, fəlsəfə doktoru Hassan Niknafs, departament müdirləri, İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli iştirak edirdilər.

H. Niknafs tədbir iştirakçılarını salamladıqdan sonra tələbələri departament müdirləri ilə tanış etdi, kredit sistemi, mübadilə proqramları və imtahan qaydaları haqqında danışdı. Ə. Əmirbəyli isə universitetin nizam-intizam qaydaları haqqında məlumat verdi.

Görüşdə tələbələri maraqlandıran məsələlər müzakirə olundu, sualları cavablandırıldı.











MEETING WITH FRESHMEN OF SCHOOL OF ENGINEERING AND APPLIED SCIENCES

On October 23, a meeting was held with first-year students of the School of Engineering and Applied Sciences. Dr. Hassan Niknafs, President of Khazar University and Acting Dean of the School of Engineering and Applied Sciences, participated in the meeting along with Alovsat Amirbeyli, Director of Public Relations and Media, and Department Heads within the School.

After greeting the participants, Dr. Niknafs introduced the Department Heads to the students.

Dr. Hassan Niknafs gave information about the credit system, exchange programs and exam rules. Alovsat Amirbeyli, Director of Public Relations and Media, gave information about the university's disciplinary rules to the students.

During the meeting, a discussion was held about issues pertinent to the students and their questions were answered.



Khazar University

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

DƏRSLİKLƏRİN HAZIRLANMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

XƏZƏR UNİVERSİTETİ

TƏLİM KURSU

13-22 NOYABR 2015



Ünvan: Məhsəti küç. 41 /Neftçilər korpusu



Noyabrın 13-də Xəzər Universitetində Təhsil Nazirliyinin sifarişi ilə ümumtəhsil pilləsində fənn kurikulumlarına uyğun "Dərsliklərin hazırlanması və qiymətləndirilməsi üzrə təlim kursu"na start verildi.

Təlimlərin noyabrın 13-dən 22-dək riyaziyyat-informatika, təbiət elmləri, tarix-coğrafiya, Azərbaycan dili və ədəbiyyatı, xarici dillər olmaqla beş qrupda xarici ölkələrdən dəvət olunan mütəxəssislərin iştirakı ilə keçirilməsi qərara alındı.

Təlimlərin açılış mərasimi universitetin "Mərmər" zalında universitet rəhbərliyi və müəllim heyətinin, Təhsil Nazirliyinin nümayəndələrinin, təlimçilərin və təlim iştirakçılarının birgə iştirakı ilə oldu.








Universitetin Təhsil fakültəsinin dekanı, fəlsəfə doktoru Elza Səmədova çıxış edərək, təhsilimzdə dərsliklərin hazırlanması və qiymətləndirilməsinin vacibliyini vurğuladı. Sonra universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qonaqları, təlimçiləri və təlim iştirakçılarını salamladı, Azərbaycanda dərsliklərin yazılması tarixindən danışdı, təlimlərdə iştirakçılara uğurlar arzuladı. Açılış mərasimində Təhsil Nazirliyinin nümayəndələri – fəlsəfə doktorları Faiq Şahbazlı və Əsgər Quliyev, təlimçilər – Dr.Canan Karababa, Professor A.Kürşat Erbaş, professor Salih Çepni, Dr.Salih Şahin də çıxış etdilər.




Açılışdan sonra təlim iştirakçıları auditoriyalara gedərək, treninqlərə başladılar.





ANTALYA VALİSİ İLƏ GÖRÜŞ

Noyabrın 20-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyənin Antalya şəhərində oldu, Antaliya valisi Muammer Turker ilə görüşdü. Görüşdə Antalyada ali təhsil və universitet quruculuğu məsələləri və Xəzər Universitetinin elm, təhsil və beynəlxalq fəaliyyəti haqqında müzakirələr aparıldı.

Görüş haqqında Türkiyənin Antalya valiliyinin vebsaytında xəbər yerləşdirilmişdir: *http://www.antalya.gov.tr/detay/3163/rektor-hamlet-isahanlidan-nezaket-ziyareti.html*

XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNƏ "TƏRƏQQİ" MEDALI VERİLDİ

Noyabrın 23-də AMEA Rəyasət Heyətinin geniş iclasında AMEA-nın prezidenti Akif Əlizadə Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə təltif olunan 100-ə yaxın alim və mütəxəssisə orden, medal və diplomlar təqdim etdi. Təltif olunanlar arasında AMEA Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi işlər üzrə direktor müavini, Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi, filologiya elmləri doktoru Xatirə Bəşirli də var idi. O, "Tərəqqi" medalı ilə təltif olunmuşdur.





"DÜNYA" MƏKTƏBİNİN MÜƏLLİMİ FƏLSƏFƏ DOKTORLUĞU DİSSERTASİYASI MÜDAFİƏ ETDİ

Noyabrın 24-də Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Dissertasiya Şurasında "Dünya" məktəbinin ingilis dili müəllimi Altuntac Məmmədova "Azərbaycan-Avropa elmi-ədəbi əlaqələrinin inkişafında Əhməd Cəfəroğlunun rolu" mövzusunda fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmişdir.

Dissertasiya Şurası A. Məmmədovaya filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırmaq haqqında yekdil qərar qəbul etmişdir.

Xəzər Universiteti *International Baccalaureate (IB)* məzunlarını qəbul edir və onlara təqaüdlər verir

Xəzər Universitetində bakalavr səviyyəsində oxumaq istəyən bütün *International Baccalaureate (IB)* məzunları, həmçinin sonuncu ilini tamamlamaq üzrə olan IB tələbələri təqaüdlər almaq üçün Xəzər Universitetinə müraciət edə bilərlər. IB imtahanında 28 və daha yüksək bal toplayan IB tələbələri Xəzər Universitetində oxuduğu 1 semestr, 36-40 bal toplayan namizədlər bir il (2 semestr), 41 bal və daha yüksək bal toplayan tələbələr isə bütün bakalavr təhsili müddətində təhsil haqqından tam azad olunacaqlar.

Khazar University Accepts and Offers Scholarships to International Baccalaureate Students

Khazar University welcomes graduates of the International Baccalaureate diploma program to apply for scholarships. Students who are still completing their final year of the IB program may apply, and will be considered for admission if they have predicted scores of 28 or higher.
Applicants to all Khazar University undergraduate programs who have successfully completed the IB diploma with a score of 28 or higher are given a scholarship covering their full tuition for one semester during their studies at Khazar University. Applicants with scores of 36-40 are given a scholarship covering their full tuition for one year (two semesters). Applicants with scores of 41 or higher are given a full scholarship covering their tuition during their whole bachelor degree program.

ABŞ-da DƏRƏCƏSİZ (1 semestr) TƏQAÜD PROQRAMI
Bakalavr Tələbələri üçün Mübadilə Proqramı (UGRAD) 2016-2017

Bakalavr Tələbələri üçün Mübadilə Proqramı 2016-2017-ci tədris ilində azərbaycanlı tələbələrə ABŞ-ın kollec və universitetlərində bir semester təhsil almaq üçün imkan təklif edir. Təqaüd proqramına istənilən ixtisasdan olan tələbələr müraciət edə bilərlər.

Son müraciət tarixi: 1 yanvar, 2016-cı il

Əlavə məlumatı bu linklərdən əldə etmək olar:
Bakıdakı ABS Səfirliyi: http://azerbaijan.usembassy.gov/edu2/ugrad.html
Ərizə forması təlimatları:
http://photos.state.gov/libraries/azerbaijan/749085/educ/ugrad_application_guide.pdf
Proqram mərhələləri:
http://photos.state.gov/libraries/azerbaijan/749085/educ/ugrad_timeline.pdf
Broşur:
http://photos.state.gov/libraries/azerbaijan/749085/educ/ugrad_brochure.pdf

Full non-degree (1 semester) scholarship program in USA:
Global Undergraduate Exchange Program 2016-2017

The Global Undergraduate Exchange Program offers a full scholarship for one semester of study in a U.S. college or university to undergraduate students from Azerbaijan for the 2016-2017 academic year. Scholarships are available in all academic fields of study.

DEADLINE: January 1, 2016

For more information:
US Embassy in Baku
http://azerbaijan.usembassy.gov/edu2/ugrad.html
Application Guideline
http://photos.state.gov/libraries/azerbaijan/749085/educ/ugrad_application_guide.pdf
Program Timeline
http://photos.state.gov/libraries/azerbaijan/749085/educ/ugrad_timeline.pdf
Brochure
http://photos.state.gov/libraries/azerbaijan/749085/educ/ugrad_brochure.pdf



Humanitarian Aid and Civil Protection

unicef
United Nations Children's Fund

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ

COĞRAFİYA VƏ ƏTRAF MÜHİT DEPARTAMENTİNİN MÜDİRİ MÜƏLLİMLƏR ÜÇÜN TƏLİM KEÇİRDİ

Oktyabrın 26-sı və 27-də Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov UNİCEF eksperti kimi müəllimlər üçün təlim keçirdi. Bu təlim "Fəlakət risklərinin azaldılması" (*Disaster Risk Reduction*) mövzusuna həsr edilmişdi. Təlimdə, həmçinin, Xəzər Universitetində olan coğrafiya müəllimliyi ixtisası barədə müəllim və şagirdlərə geniş məlumat verildi.





TƏLƏBƏLƏR KİTAB TƏQDİMATINDA

Oktyabrın 26-da Xəzər Universiteti Təhsil fakültəsinin tələbələri Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında İDEA İctima Birliyinin hazırladığı "Ekoloji menecment" kitabının təqdimatında iştirak etdilər. Sonda tələbələrə kitab hədiyyə olundu.





HUMANİTAR VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİ








"XOŞ GƏLDİNİZ"

Oktyabrın 28-də Humanitar və sosial elmlər fakültəsində birinci il tələbələri üçün "Xoş gəldiniz" tədbiri keçirildi. Fakültənin dekanı dosent Cabir Xəlilov tədbiri açaraq, tələbələri təbrik etdi və universitet haqqında onlara ətraflı məlumat verdi. Xəzər Universitetinin təsisçisi, Direktor və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və fakültənin müəllimləri də tələbələri təbrik edərək, universitetdə onların hərtərəfli inkişafı üçün yaradılmış şəraitdən danışdılar və onlara universitet həyatında fəal olmağı tövsiyə etdilər.

Sonra tələbələr hazırladıqları müxtəlif mahnı, rəqs və digər musiqi nömrələrini nümayiş etdirərək, tədbirə öz töhfələrini verdilər.

Tələbələrin istedadlarını ortaya çıxarmaq, onları daha yaxından tanımaq məqsədilə keçirilən belə tədbirlər, eyni zamanda, onların tələbə həyatının daha maraqlı olmasına da şərait yaradır.




TƏLƏBƏ - MÜƏLLİM HEYƏTİ
QUBAYA
SƏFƏR
ETDİ



Noyabrın 1-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı beynəlxalq tələbələr, müəllimlər və işçi heyəti ilə görüş keçirdi. Görüş Azərbaycanın ən gözəl turist məkanlarından biri olan Qəçrəşdə – Qubada oldu. Görüşdə Xəzər Universitetinin rektoru Hassan Niknafs, "Dünya" məktəbinin həmtəsisçisi Nailəxanım İsayeva, "Dünya" məktəbi İB Proqramının direktoru Rəna Həsənova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və Beynəlxalq əlaqələr ofisinin işçi heyəti də iştirak edirdilər.



Görüşdə Əfqanıstan, Belarus Respublikası, Kamerun, Çex Respublikası, Çin, Hindistan, İndoneziya, İran, Niderland Krallığı, Nigeriya, Pakistan, Rusiya, Türkiyə və ABŞ da daxil olmaqla, 15-dən çox ölkədən olan tələbələr, müəllimlər və işçi heyəti iştirak edirdilər. Onların bir çoxu üçün bu, Bakıdan kənarda keçirilən ilk gəzinti idi. İştirakçılar Azərbaycan mədəniyyəti, musiqisi, rəqsləri və mətbəxi ilə tanış oldular.





INTERNATIONAL STUDENTS, FACULTY AND STAFF VISIT GUBA

On November 1, the annual meeting of the Founder of Khazar University with the international students, faculty, and staff was held. The meeting took place in Gechresh, Guba – one of the favorite touristic destinations of Azerbaijan. Prof. Hamlet Isakhanli, Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees; Dr. Hassan Niknafs, President of Khazar University; Naila Isayeva, co-founder of Dunya School; Rena Hasanova, Dunya School IB Program Director; Alovsat Amirbayli, Director of Public Relations and Media, and the International Affairs Office staff participated in the meeting.

The annual meeting brought together students, faculty, and staff from more than 15 countries including Afghanistan, Belarus, Cameroon, Czech Republic, China, India, Indonesia, Iran, Netherlands, Nigeria, Pakistan, Russia, Turkey, and USA. For most of them, this was the very first trip outside of Baku. The trip exposed the participants to Azerbaijani culture, music, dances, and cuisine.



PROJECT ACTORS CAPACITY TRAINING IN CAUCASUS PRESENTATION AT "IMPROVING ACADEMIC STANDARDS IN EDUCATION – CONFERENCE ISE 2015"

On October 29-30, 2015, the Improving Academic Standards in Education – Conference ISE 2015 took place in Tbilisi, Georgia with the participation of European experts in project development and management. Raziya Isayeva, Khazar University Director of Development, and Yegane Balamedova, English Language Instructor at Khazar University, participated in the conference.

The two-day conference was preceded by the final management meeting for the PACT project on October 27 at David Tvildiani Medical University, where Raziya Isayeva, who is also coordinating this project at Khazar University, reported on the project activities, namely the realization of the Mentoring Program. As a result of the mentoring program, the Khazar University team has created 13 mentor-mentee tandems which include an international mentor with extensive project development and management experience and one mentee as a new starter in the field.

The two-day conference on Improving Academic Standards in Education –ISE 2015 began with presentations elaborating on the necessity of project sustainability, mainstreaming and other project outcomes. Raziya Isayeva gave a speech on Project Actors Capacity trainings at Khazar University and positively appraised the project and its outcomes. She talked about project benefits for Azerbaijani Universities in general and for Khazar University and its staff members specifically. She also mentioned that the project sustainability will be ensured via introduction of a new course on Project Development which will be taught on the PhD and/or Master level, and will also be introduced in the next academic year as an LLL course for the wider public, specifically including staff members of other Azerbaijani Universities who want to develop a project.

On the second day of the conference, the trainees and trainers from Southern Caucasus countries presented their project ideas. The project ideas were presented using the Logical Framework Approach which was a central point of the project development in the PACT program. Yegana Balamedova presented the idea of one of the projects developed by the Azerbaijani trainees, called VAFLI – Videoconferencing Application for Foreign Language Instruction.

The conference ended with very positive prospects for further sustainability of the project. Its benefits effects which were evident during the conference, where many projects with good ideas were presented and positively evaluated by international experts.



TƏLƏBƏ İNFORMASİYA SİSTEMİNİN TƏQDİMATI

Oktyabrın 30-da Xəzər Universitetində Xəzər Universiteti Texnoparkının təşkilatçılığı ilə Tələbə İnformasiya Sisteminin təqdimatı keçirildi. Təqdimatda Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən və müxtəlif universitetlərdən nümayəndələr iştirak edirdilər. Tədbiri Xəzər Universiteti Texnoparkının direktoru Özdən Doyuran açdı. İnformasiya sistemləri şöbəsinin meneceri Rəşad Xalıqov Xəzər Universitetində fəaliyyətdə olan Tələbə İnformasiya Sistemini təqdim etdi.

Təqdimat haqqında respublikanın kütləvi informasiya vasitələrində də xəbərlər verildi. Ətraflı məlumat üçün aşağıdakı linklərə müraciət etmək olar:

http://ictnews.az/read-39567-news-1.html;
http://ictnews.az/read-39540-news-1.html.





BİRİNCİ İL TƏLƏBƏLƏRİ ÜÇÜN WELCOME PARTY





Oktyabrın 30-da Mühəndislik və tətbiqi elmlər fakültəsinin birinci il tələbələri üçün *"Welcome party"* keçirildi. Birinci il tələbələri öz bacarıqlarını nümayiş etdirdikdən sonra tədbiri rəqslərlə davam etdirdilər.

Tədbirdə Mühəndislik və tətbiqi elmlər fakültəsinin müəllimləri və digər əməkdaşları iştirak edirdilər.





"XƏZƏR UNİVERSİTETİ BİRİNCİ İLLİK ROBOT MÜSABİQƏSİ" KEÇİRİLƏCƏK

2015-ci il dekabrın 18-də Xəzər Universitetində Mühəndislik və tətbiqi elmlər fakültəsinin təşkilatçılığı ilə "Xəzər Universiteti Birinci İllik Robotexnika müsabiqəsi" keçiriləcək.

Azərbaycanda ilk dəfə olaraq, Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsi "Robotexnika mühəndisliyi" fənninin tədrisini təklif etmişdir. Bu kurs robot mexanizmləri, dinamikası və ağıllı nəzarətləri əhatə edir.

"Robotexnika mühəndisliyi" dərsinin əsas məqsədləri analoq və rəqəmsal proqramlaşdırmada praktik və nəzəri anlayışı süni intellekt və rəqəmsal elektronikaya tətbiq etməkdir.

Proqramın sonunda tələbələr semestr ərzində əldə etdikləri biliklərini, eləcə də müştərək və sosial bacarıqlarını nümayiş etdirmək üçün universitet səviyyəsində təşkil olunacaq müsabiqədə iştirak edəcəklər.

"KHAZAR UNIVERSITY FIRST ANNUAL ROBOTICS COMPETITION" TO BE HELD

Khazar University, School of Engineering and Applied Sciences offered "Robotics Engineering" course first time in Azerbaijan. This course offers an outline of robot mechanisms, dynamics, and intelligent controls. Main objectives of Robotics Engineering class are Practical and theoretical understanding of analogue and digital electronics to software programming and artificial intelligence.

As a summary of course, students will participate in university level Robotics competition to accumulate their knowledge as well as teamwork and social skills.

We proudly invite you to attend "Khazar University First Annual Robotics Competition" in December 18 at 7 pm.

List of the participate teams are as follow;



"XƏZƏR"İN ƏMƏKDAŞI ƏTRAF MÜHİT ÜZRƏ PAYIZ MƏKTƏBİNDƏ

Coğrafiya və ətraf mühit departamentinin müdiri, fəlsəfə doktoru Rövşən Abbasov noyabrın 3-də Alman Beynəlxal Əməkdaşlıq Təşkilatı və ADA Universitetinin təşkil etdikləri Ətraf Mühit üzrə Payız Məktəbində iştirak etmiş və iştirakçılara Ceyranbatan su anbarı, həmçinin Bakı şəhərinin içməli su təminatı ilə bağlı məlumat vermişdir.

Khazar Instructor Invited to Autumn Environmental School

On November 3, Dr. Rovshan Abbasov, Chair of Khazar University's Department of Geography and the Environment, was invited to the Autumn Environmental School organized by German International Zusammenarbeit GIZ and ADA University.

Dr. Rovshan Abbasov gave a presentation to the international participants about Jeyranbatan Water Reservoir and the drinking water supply for Baku.

UNİVERSİTET ƏMƏKDAŞLARI BEYNƏLXALQ SİMPOZİUMDA



Türkiyənin Qars şəhərində "Azərbaycanşünaslıq: keçmişi, bu günü və gələcəyi" mövzusunda keçirilən beynəlxalq simpoziumda azərbaycanlı digər həmkarlarla yanaşı NDU-nun əməkdaşları da təmsil olunub. Qars Qafqaz Universitetində fəaliyyət göstərən Azərbaycan dili və ədəbiyyatı ixtisasının 10 illik yubileyinə, həmçinin dil, folklor, ədəbiyyat, sənət və tarix məsələlərinə həsr olunan simpoziumun açılış mərasimində Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova, Azərbaycanın Qars şəhərindəki Baş konsulu Ayxan Süleymanov, Qars Qafqaz Universitetinin və Ərdahan Universitetinin rektorları – professorlar Sami Özcan və Ramazan Qorxmaz, Qars Qafqaz Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, dosent Adəm Balqaya çıxış edərək, azərbaycanşünaslığın tarixindən danışıblar, Azərbaycan və Türkiyə arasında ortaq mədəniyyət haqqında fikir və təkliflər səsləndiriblər.


KAFKAS ÜNİVERSİTESİ

KATILIM BELGESİ

Doç.Dr. Seyid SURE

Kafkas Üniversitesi Fen-Edebiyat Fakültesi Çağdaş Türk Lehçeleri ve Edebiyatları tarafından 21 - 23 Ekim 2015 tarihleri arasında düzenlenen "Azerbaycanşinaslık : Geçmişi, Bugünü ve Geleceği" isimli Uluslararası Sempozyuma katkılarınız için teşekkür ederiz.

Prof.Dr. Sami ÖZCAN

On iki bölmə üzrə üç gün davam edən simpoziumda Qarsdakı Azərbaycan cəmiyyətlərinin üzvləri, Azərbaycan Milli Elmlər Akademiyasının, müxtəlif ali məktəblərin nümayəndələri də iştirak edib.

NDU-nun tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid simpoziumun elmi heyətinin üzvü kimi təşkilati məsələlərdə də yaxından iştirak edib. Onun "Əli Vəliyev və Mirzə İbrahimov Naxçıvanda mətbuat və ədəbi inkişafın təkanverici qüvvələri kimi" mövzusunda etdiyi məruzə, Naxçıvan ədəbiyyat və mətbuat tarixi ilə bağlı araşdırmaları, slaydlar şəklində nümayiş etdirdiyi yeni elmi faktlar və arxiv materialları böyük maraqla qarşılanıb. Surə Seyid NDU-da tədrisin vəziyyəti, mövcud ixtisaslar və qazanılmış nailiyyətlərdən danışıb, muxtar respublikada demokratik mətbuatın inkişafı, müasir ədəbi proseslə bağlı sualları cavablandırıb.

Qeyd olunub ki, 2005-ci ildə NDU-nun da yaxından dəstəyi sayəsində Qars Qafqaz Universitetində yaradılan Azərbaycan dili və ədəbiyyatı bölməsi, universitetdə fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi iki dost dövlət, qardaş xalq arasında ictimai-siyasi, elmi-mədəni əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır. Seyid Surə Qars Qafqaz Universitetindəki Heydər Əliyev Mərkəzinə, simpozium iştirakçılarına Azərbaycan və Naxçıvanla bağlı yeni elmi-kütləvi nəşrlər, elektron vəsaitlər təqdim edib. Müəllif tərəfindən hədiyyə olunan, ingilis dilində nəşr olunmuş "Naxçıvanda mətbuatın inkişaf tarixi" adlı kitab isə simpozium iştirakçıları tərəfindən xüsusi maraqla qarşılanıb.

Mehriban Sultan,
NDU-nun Mətbuat şöbəsinin müdiri





Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" sərəncamının icrası məqsədilə oktyabrın 23-də NDU-da növbəti tədbir keçirilib.Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərininin universitetin hüquqşünaslıq ixtisasının tələbəri ilə görüşü universitetin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, fəlsəfə doktoru, dosent Qərib Allahverdiyev açaraq, hüquqşünas kadrların hazırlanmasına, onların iş yerləri ilə təmin olunmasına göstərilən qayğıdan, sözügedən sərəncamdan irəli gələn vəzifələrdən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar hüquqşünası Əli Allahverdiyev təmsil etdiyi qurumun 2015-ci il 27 iyul tarixli sərəncamın icrası məqsədilə universitetlə birgə hazırladığı tədbirlər planı barədə geniş məlumat verib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi, Naxçıvan Muxtar Respublikasının əməkdar hüquqşünası Vüqar Əliyev məhkəmə sistemi müstəvisində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin statusu ilə bağlı çıxış edərək, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin üçpilləli məhkəmə sistemi kimi daha mütərəqqi quruluş formasına malik olmasından, onun mülki, inzibati-iqtisadi, cinayət, hərbi kollegiyalarının struktur quruluşu və fəaliyyət prinsiplərindən danışıb. Tədbirin sonunda ali təhsil ocağı ilə əməkdaşlığın gələcək inkişafına xidmət edəcək təkliflər səsləndirilib.





İTALİYALI PROFESSOR XƏZƏR UNİVERSİTETİNDƏ MÜHAZİRƏ OXUDU

Noyabrın 5-də Təhsil fakültəsinin Bioloji elmlər departamentinin dəvəti ilə İtaliyanın del-Salento Universitetinin professoru Lusiana Dini Xəzər Universitetində "Nanohissəciklərin hüceyrələrlə *in vitro* qarşılıqlı əlaqəsi və biouyumluluğu" mözusunda müəllim və tələbələrə mühazirə oxudu. Mühazirədə müxtəlif formalı və tərkibli nanohissəciklər, onların biologiyanın və tibbin müxtəlif sahələrində və gündəlik həyatda istifadəsi, əhəmiyyəti, toksik effektləri və hüceyrələrlə qarşılıqlı əlaqəsindən bəhs edildi.

Mühazirədə İranın Ərdəbil Həkimlər Cəmiyyətinin üzvü Əmirrza Qəmənni, həkim Arzu Abbasov və Tibb Universitetinin elmi işçisi Hafiz Osmanov da iştirak edirdilər.

Mühazirədən sonra del-Salento Universitetinin "Bioloji və ətraf mühit elmləri və texnologiyaları" tədqiqat departamenti ilə Xəzər Universiteti arasında biotexnologiya üzrə elm və tədris sahəsində əməkdaşlıq haqqında müzakirələr aparıldı.

Sonda qonaqlar Xəzər Universitetinin Mədəniyyət Mərkəzində oldular. Orada universitetin Kamera orkestrinin ifasında Azərbaycan klassik musiqisini dinlədilər, Azərbaycan xalçaçılıq sənəti ilə və tələbələrin rəsm əsərləri ilə tanış oldular.

ITALİAN PROFESSOR GİVES GUEST LECTURE AT KHAZAR

On November 5, 2015, Professor Lusiana Dini of Italy's del Salento University presented a lecture on "In vitro interactions and biocompatibility of nanoparticles and cells" for instructors and students of the Biology Department. The lecture discussed various types and forms of nanoparticles, their daily use in medicine and various fields of biology, their significance, toxic effects, and interactions with cells.

Other participants in the lecture included Dr. Amirrza Gamanni, member of Erdebil Doctors' Union of Iran; Dr. Arzu Abbasov; and Hafiz Osmanov, researcher for the Medical University.

After the lecture, a discussion was held on academic and scientific partnership between Khazar University and del Salento University's "Biology and Environmental Sciences and Technologies" research department.

Then the guests visited Khazar's Cultural Center, where they heard a concert of the Khazar University Chamber Orchestra and viewed samples of student art and carpet-making.





"DƏRSLİKLƏRİN HAZIRLANMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ TƏLİM KURSU" BAŞA ÇATDI

2015-ci il noyabrın 13-də Xəzər Universitetində Təhsil Nazirliyinin sifarişi ilə ümumtəhsil pilləsində fənn kurikulumlarına uyğun "Dərsliklərin hazırlanması və qiymətləndirilməsi üzrə təlim kursu"na start verilmişdi. Təlimlər noyabrın 22-dək riyaziyyat-informatika, təbiət elmləri, tarix-coğrafiya, Azərbaycan dili və ədəbiyyatı, xarici dillər qrupu olmaqla beş qrupda, xarici ölkələrdən dəvət olunan mütəxəssislərin iştirakı ilə keçirildi.



10 gün davam edən təlimlər prosesində təşkil olunmuş dəyirmi masalar olduqca maraqlı və səmərəli oldu. Mühazirə, diskussiya, debat şəraitində həyata keçirilən bu dəyirmi masalarda iştirakçılar tərəfindən dərsliklərin kurikulumla sıx əlaqələri müzakirə olundu, dərsliklərdə yer alan mövzuların dövlət tərəfindən müəyyən edilmiş standartlara uyğunlaşdırılmasının vacibliyi vurğulandı və qiymətləndirmə prosesinin obyektiv, qərəzsiz aparılması xüsusi olaraq, qeyd olundu.

Layihə çərçivəsində fəal təlimin üsul və formalarını özündə ehtiva edən xarici dərsliklərlə yerli dərsliklərin tələbyönümlü, inkişafetdirici və şəxsiyyətyönümlü xüsusiyyətləri müqayisəli təhlil olundu, dərsliklərdə vizual tərtibatın önəmi qeyd edildi. Təlim prosesində müzakirə edilən mövzularla bağlı qrup işləri aparıldı, təqdimatlar nümayiş etdirildi.

Layihənin sonunda iştirakçılara sertifikat təqdim edildi və xatirə şəkli çəkildi.

İnanırıq ki, uğurla öz işini yekunlaşdıran bu layihə respublikamızda təlim-tədris prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayacaq və təhsillə bağlı inkişaf proqramlarının, xüsusən də "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi istiqamətində öz layiqli töhfəsini verəcək.







XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ BİLİK YARIŞMASINDA

Noyabrın 10-da Heydər Əliyev Mərkəzində "Azərbaycan tarixi və Heydər Əliyev" 2-ci ümümrespublika bilik yarışması keçirildi. Xəzər Universitetinin də qatıldığı yarışda ümumilikdə 46 ali təhsil müəssisəsi iştirak edirdi. "Xəzər"in komandasının heyətində Humanitar və sosial elmlər fakültəsindən Mirzəağa Səmədov (kapitan), Cəlal Hüseynbəyli, Təbriz Adilzadə, Kamran Məmmədov və Təhsil fakültəsindən Rüfət Xəlilov, Ceyhun Hüseynov və Salman Adişirinli iştirak edirdilər.

İlk turdan sonra 3-cü pillədə, 2-ci turdan sonra 5-ci, yarışın sonunda 3 turdan sonra isə qazanılan xallara görə Xəzər Universiteti 8-11-ci yerləri (digər komandalar ilə xallar eyni olduğuna görə – ADA Universiteti, Azərbaycan Ali Dənizçilik Məktəbi, Bakı Dövlət Universiteti) bölüşdürdü.

Qeyd edək ki, yarışda 1-ci yeri Qafqaz Universiteti, 2-ci yeri Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası və 3-cü yeri Lənkəran Dövlət Universiteti qazandılar.

REKTOR İSPANİYANIN MÜVƏQQƏTİ İŞLƏR VƏKİLİ İLƏ GÖRÜŞDÜ

Noyabrın 17-də Xəzər Universitetinin rektoru professor Hassan Niknafs İspaniyanın Azərbaycandakı Müvəqqəti İşlər vəkili Xose Luis Diezlə görüşdü. Görüş zamanı tərəflər arasında münasibətlərin daha da inkişaf etdirilməsi, İspaniya universitetləri ilə tələbə mübadiləsinin aparılması, İspaniya günlərinin keçirilməsi və digər məsələlər müzakirə edildi.

Görüşdə universitetnin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli də iştirak etdi.

PRESİDENT OF KHAZAR MEETS WİTH CHARGÉ D'AFFAİRES OF SPAİN

On November 17, 2015, Prof. Hassan Niknafs, President of Khazar University, hosted José Luis Díez, Chargé d'affaires of Spain to Azerbaijan. They discussed further development of partnership, student exchanges between Azerbaijani and Spanish universities, hosting Spanish Days, and other issues. Alovsat Amirbeyli, Director for Public Relations and Media, also participated in the meeting.

«ЛИТЕРАТУРНАЯ ГАЗЕТА» DA İSAXAN İSAXANLININ YARADICILIĞI HAQQINDA MƏQALƏ

Moskvada dərc olunan «Литературная газета»nın 19 noyabr 2015-ci il tarixli sayında əməkdaşımız, Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlının Yeseninlə bağlı yaradıcılığından bəhs edən «Самый труднопереводимый и самый любимый» («Ən çətin tərcümə olunan və ən sevimli») sərlövhəli məqalə dərc edilmişdir. Məqalənin müəllifi görkəmli ədəbiyyatşünas alim, professor Nizami Tağısoydur.

Məqalədə İsaxan İsaxanlı Azərbaycanda müasir yeseninşünaslığın ən fəal nümayəndəsi, tədqiqatçı və tərcüməçi kimi təqdim olunur, onun Yesenin yaradıcılığı ilə bağlı apardığı araşdırmaları, işıq üzü görmüş məqalə və monoqrafiyaları yüksək qiymətləndirilir. İsaxan İsaxanlı ilə yanaşı, məqalədə Yesenin poeziyasının Azərbaycanda populyarlaşmasında Xəzər Universitetinin rolu ayrıca qeyd edilir.

Məqaləni bu linkdə oxumaq olar

http://www.lgz.ru/article/-46-6532-19-11-2015/samyy-trudnoperevodimyy-i-samyy-lyubimyy/

(Məqalə jurnalın 62-ci səhifəsində dərc olunur)







"VİRTUAL QARABAĞ TARİXİ MUZEYİ"NİN TƏQDİMAT MƏRASİMİ

Noyabrın 5-də Xəzər Universitetində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Virtual Qarabağ" İKT Mərkəzinin Milli Azərbaycan Tarixi Muzeyi ilə əməkdaşlığı çərçivəsində hazırladığı "Virtual Qarabağ Tarixi Muzeyi"nin təqdimat mərasimi keçirildi. Tədbirdə Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, departamentin müəllimləri Orxan Zamanov və Ülviyyə İbrahimli, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Azərbaycan dili və ədəbiyyatı departamentinin müdiri Vurğun Əyyub, Jurnalistika departamentinin koordinatoru Cabir Məmmədov, layihənin redaktoru Dövran Abuzərov, layihənin rəhbəri, Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı Səbuhi Hüseynov, AMEA-nın əməkdaşı Yaqub Məmmədov və tələbələr iştirak etdilər.

Tədbiri giriş sözü ilə Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova açdı. O, çıxışında Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında tarixçilərin rolundan və yeni metodların tətbiqi ilə maddi mədəniyyət abidələrinin bütün dünyada təbliğinin vacibliyindən bəhs etdi.




Sonra R. Arazova çıxış üçün sözü Dövran Abuzərova verdi. D. Abuzərov çıxışı zamanı layihənin məqsədləri və hazırlanması prosesindən mərhələli şəkildə danışdı, Xəzər Universitetindən layihədə könüllü iştirak etmiş tələbələrə minnətdarlığını bildirdi.

Daha sonra söz Səbuhi Hüseynova verildi. S. Hüseynov sayt haqqında geniş məlumat verdi. Orxan Zamanov isə çıxışında tələbələrə saytın təbliğatının vacibliyini vurğuladı və bu sahədə tələbələrin üzərinə böyük iş düşdüyünü qeyd etdi. Ələvsət Əmirbəyli layihə iştirakçılarına minnətdarlığını bildirdi və saytın ingilis dilinə tərcüməsindən sonra xarici ölkələrdə təbliğatı ilə yaxından məşğul olacağını dedi. Cabir Məmmədli virtual kitabxananın yaradılması və layihə ilə bağlı digər təkliflərini verdi.

R. Arazovanın tədbir iştirakçılarına minnətdarlığını bildirməsi ilə təqdimat başa çatdı.





PHYSICS SEMINAR

On November 5th, a physics seminar on "PRINCIPIA: A conceptual and historical approach to Newton's Laws and Gravitation" was held for students on the Khazar University Neftcilar Campus. The speaker, Dr. Jafari, Assistant Professor in Physics at the University, spoke about a pre-Copernican theory of astronomy, Newton's laws and gravitation. He mentioned that equality of inertial and gravitational masses is one of the bases of Einstein's General Relativity, and discussed its relationship with Newton's laws. At the end of the event, a discussion was held with the participants.



INSTRUCTOR OF KHAZAR UNIVERSITY PRESENTED AND PUBLISHED A TECHNICAL PAPER IN SPE CONFERENCE

Mr. Mehdi Zarei, a lecturer in Chemical and Petroleum Engineering Departments and a professional member of the Society of Petroleum Engineering (SPE), presented a technical paper at the SPE Annual Caspian Technical Conference and Exhibition which was held from November 4 to November 6, 2015, in Baku, Azerbaijan.

His technical paper, titled "Experimental Study of Heavy Metal Ion Removal from Oil Field Brine", focused on minimizing the risk of a waste stream through heavy metal extraction. The paper was well-received and praised by the participants of the conference.



The conference consisted of 12 technical sessions and 6 poster sessions which covered these areas:

- Gas Development
- Managing Risk and Performance
- Industry Insights and Experience in Developing National Capability

Moreover, students of PhD, Master and Bachelor level of Petroleum Engineering department of Khazar University attended the event. Some of the major national and international companies in oil and gas field such as SOCAR, British Petroleum (BP), Schlumberger, Halliburton, and Statoil were also present at the conference.

Further information about the technical article can be found on the following link:

https://www.onepetro.org/conference-paper/SPE-177348-MS



YESENİNŞÜNAS TƏDQİQATÇI İSAXAN İSAXANLININ YARADICILIĞI HAQQINDA "KASPİY" QƏZETİNDƏ MƏQALƏ DƏRC OLUNMUŞDUR

"Kaspiy" qəzetinin 6 noyabr 2015-ci il tarixli nömrəsində ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Nizami Tağısoyun İsaxan İsaxanlının yaradıcılığı haqqında «Неиссякаемый источник» («Tükənməyən mənbə") adlı məqaləsi dərc olunmuşdur. Məqalədə İ. İsaxanlının Serqey Yeseninin poeziyasına aid tədqiqatlarında bəhs edilir.

XƏZƏR UNİVERSİTETİ BRİTANİYA ALİ TƏHSİL UNİVERSİTETLƏRİ İLƏ ƏMƏKDAŞLIQ TƏDBİRİNDƏ İŞTİRAK ETDİ

Noyabrın 9-da Beynəlxalq Əlaqələr Ofisinin direktoru Turan Cəfərova Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə *British Council–Azərbaycan*ın həyata keçirdiyi tədbirdə Xəzər Universitetini təmsil etdi.

Ali təhsil müəssisələri arasında əməkdaşlıq tədbirinin əsas məqsədi əməkdaşlıq imkanlarını müzakirə etmək üçün Britaniya və Azərbaycan universitetlərini bir araya gətirmək idi. Tədbir iyirmi yerli və bir sıra Britaniya universitetlərinin nümayəndələrinin iştirakı ilə keçdi. Tədbirdə həmçinin Təhsil Nazirliyinin və Azərbaycan Milli *Erasmus Plus* ofisinin nümayəndələri də iştirak edirdilər.

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI "STARTAP GÜNLƏRİ"NDƏ

Noyabrın 6-dan 8-dək Bakıda Startap Azərbaycan tərəfindən "Startap günləri" keçirildi. Noyabrın 6-da Yüksək Texnologiyalar Parkında "Startap günləri"nin açılış mərasimi oldu və "Yeni startapların yaranmasında biznes inkubatorların və universitetlərin rolu" mövzusunda konfrans təşkil olundu. Konfransda Xəzər Universiteti Texnoparkının direktoru Özdən Doyuran və universitetin Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri iştirak etdilər.





BEYNƏLXALQ ƏLAQƏLƏR OFİSİNİN DİREKTORU OSLO UNİVERSİTETİNDƏ

Xəzər Universiteti Beynəlxalq əlaqələr ofisinin direktoru Turan Cəfərova oktyabrın 11-dən 15-dək Oslo Universiteti ilə həyata keçiriləcək birgə layihə üzərində işləmək üçün Norveçdə olmuşdur.

Azərbaycandan layihədə Xəzər Universiteti ilə yanaşı, Qərb Universiteti iştirak edir. Səfər proqramı çərçivəsində nümayəndələr yeni layihə üzərində çalışmış və Oslo Universitetinin bir sıra tədris departamentlərində və inzibati ofislərində olmuşlar (Siyasi elmlər departamenti, beynəlxalq ofis, kitabxana və s.).

INTERNATIONAL AFFAIRS OFFICE STAFF VISITS UNIVERSITY OF OSLO

October 11-15, Turan Jafarova, Director of the International Affairs Office, visited the University of Oslo in Norway as part of a delegation from Azerbaijan working on a new joint project.

Partners from Azerbaijan include Western University and Khazar University. During the visit, members of the delegation visited several departments and offices at the University of Oslo (Department of Political Sciences, International Office, library, and others) and participated in project discussions and development.

"40-CI ACM ICPC" MÜSABİQƏSİNİN NÖVBƏTİ MƏRHƏLƏSİ

Oktyabrın 24-də Qafqaz Universiteti, Bakı Dövlət Universiteti, ADA Universiteti, NAPCAR, "IEEE Computer Society" Azərbaycan bölməsi və "ACM" Azərbaycan bölməsinin dəstəyi ilə universitet tələbələrinin 40-cı ACM ICPC Proqramlaşdırma üzrə Beynəlxalq Müsabiqəsinin növbəti – 1/4 final mərhələsi keçirilmişdir. Qafqaz Universitetində keçirilən müsabiqədə 15 universitetdən 55 komanda, o cümlədən Xəzər Universitetinin tələbələri də iştirak etmişlər.



Oktyabrın 23-də Xəzər Universitetinin Neftçilər kampusunda Tələbə Məclisinin təşkilatçılığı ilə yazıçı Qalib Xəlilin "Dünyanın üfüqləri yaxınlaşır" kitabının təqdimatı keçirildi. Müəllif əvvəlcə 18 Oktyabr – Müstəqillik Gününə həsr olunmuş "Bilik" yarışı - münsifi olduğu tədbir barəsində öz fikrini bildirərək, yarışın maraqlı keçdiyini söylədi.

Sonra kitabın təqdimatı keçirildi. Yazıçı əsərin hansı üslubda yazıldığını və maraqlı məqamları auditoriyaya bildirdi və müzakirələr oldu. Qalib Xəlil bu kitabın ardı olaraq 2-ci cildinin dekabrda təqdim olunacağını bildirdi.

Görüşün sonunda xatirə şəkli çəkildi.



RİSKİN İDARƏ EDİLMƏSİ İLƏ BAĞLI SEMİNAR

Oktyabrın 23-də Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı ilə universitetdə "STIM International" Təlim şirkətinin təsisçisi, bir sıra treninq - seminarların aparıcısı və məsləhətçisi Samir Cavadov seminar keçirdi. Universitet tələbələrinin iştirak etdiklər seminarda risk anlayışı, risklərin qiymətləndirilməsi, risklərin idarə edilməsi, təhlükəsizlik mədəniyyətinin yaradılması, iş yerlərində və ofislərdə təhlükəsizlik qaydaları haqqında müzakirələr aparıldı.

Sonda tələbələri maraqlandıran suallar cavablandırıldı.



ESFIDIP

TEMPUS LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏLİMLƏR

"Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsi çərçivəsində ali təhsil müəssisələrində əlilliyi olan tələbələrə necə dəstək və yardım edilməsi mövzusunda iki hissədən ibarət təlim keçirildi.

Təlimin birinci hissəsində - oktyabrın 14-ü və 15-də layihənin Avropa partnyoru olan Makedoniya Universiteti yerli partnyor universitetlərin işçi və tələbə heyəti üçün onlayn təlim keçirdi.

Təlimin ikinci hissəsi oktyabrın 20-dən 23-dək Sumqayıt Dövlət Universitetində Lodz və Qraz universitetlərinin nümayəndələri tərəfindən həyata keçirildi. Təlimin əsas məqsədi Avropa universitetlərinin əlilliyi olan tələbələrlə işləmək təcrübələrini yerli universitetlərin nümayəndələri ilə bölüşmək idi.

Təlimlərdə 30-a yaxın inzibati işçi, müəllim və tələbə heyəti iştirak etdi. Təlimin nəticəsində universitet nümayəndələri öz həmkarları üçün eyni mövzuda təlimlər keçəcəklər. Məqsəd təlim zamanı əldə olunan bilik və təcrübəni digər əməkdaşlarla bölüşmək və bununla da daha çox şəxsi məlumatlandırmaqdır.

MEETINGS FOR ESFIDIP TEMPUS PROJECT

A two-part training was held about how to support and help disabled students as part of the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project.

The first part of the training was held on October 14-15, 2015. It was led by Macedonia University (a project partner) in an online format for local partner universities' staff and students.

The second part of the training was held at Sumgayit State University on October 20-23, 2015. It was led by representatives from the University of Lodz and University of Graz. The main goal of the training was to create an opportunity for European partner universities to share their experience in working with disabled students with local partner university representatives.

Nearly 30 university faculty, staff and student representatives participated in the event. After the training, the participants will hold similar training events for their own colleagues with the objective of raising awareness among more people and sharing the new knowledge and experience they gained during the training.

"AVRASİYA ƏMƏKDAŞLIQ FONDU"NUN İCLASI

Oktyabrın 22 - 23-də *"Ramada Hotel and Suites Baku"*da "Avrasiya Əməkdaşlıq Fondu"nun iclası keçirildi. İclasda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Himayəçilər Şurasının üzvləri, məsul şəxslər Devid Lorens Li (MagtiCom, Ltd), Endru Koksşol (KPMG), Meri Şihen (Beynəlxalq Miqrasiya Təşkilatı) və Roy Sautvort (Dünya Bankı), həmçinin, İdarə və İşçi Heyətinin üzvlərindən Nailə Həşimova və Nino Stavridi iştirak edirdilər.

Görüşdə müvafiq məsələlər müzakirə olundu.

EURASIA PARTNERSHIP FOUNDATION MEETING

On October 22 and 23, a meeting of Eurasia Partnership Foundation was held at Ramada Hotel and Suites Baku. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, participated in the meeting, as well as other members of the Board of Trustees including David Lawrence Lee (MagtiCom Ltd), Andrew Coxshall (KPMG), Mary Sheehan (International Migration Organization) and Roy Southworth (World Bank). Naila Hashimova and Nino Stavridi of the Executive Staff also participated. Several issues were discussed at the meeting.

KİM-İN ƏMƏKDAŞLARI TƏQDİMATDA

Oktyabrın 22-də ADA Universitetinin kitabxanasında Mehmet Haseki tərəfindən ***IEEE Xplore*** elektron bazasının təqdimatı keçirildi. IEEE Xplore rəqəmsal elmi-tədqiqat bazası əsasən informatika, elektronika və elektronika mühəndisliyi sahələrini əhatə edir. Təqdimatda Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin əməkdaşları – Samirə Orucova və Səidə Orucova da iştirak etdilər.

IEEE Xplore

On October 22, 2015, Mehmet Haseki led a presentation of IEEE Xplore Digital Scientific Research Database in the ADA University library. IEEE Xplore database covers the fields of informatics, electronics and electronics engineering. Samira Orujova and Saida Orujova, Khazar University Library Information Center staff members, attended the presentation.

13. Beynəlxalq Türk Dünyası İctimai Elmlər Konqresi

Oktyabrın 28-30-da Azərbaycan Dövlət İqtisad Universitetində dünyanın 12 ölkəsindən nümayəndələrin qatıldığı 13-cü Beynəlxalq Türk Dünyası İctimai Elmlər Konqresi keçirildi. Konqresin açılışında Xəzər Universitetinin rektoru professor Hassan Niknafs və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirak etdilər.

13TH INTERNATIONAL TURKIC WORLD SOCIAL SCIENCES CONGRESS OPENS

On October 28, 2015, the opening ceremony of the 13th International Turkic World Social Sciences Congress was held at Azerbaijan State Economics University. The congress, which includes representatives from 12 countries, will continue for three days. Participants in the opening ceremony included Professor Hassan Niknafs, President of Khazar University, and Alovsat Amirbeyli, Director for Public Relations and Media.



XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU YERLİ BOKT-LARDAN BİRİNİN RƏHBƏRİ TƏYİN EDİLMİŞDİR

"Rabitəbank" ASC-nin İdarə Heyətinin sabiq sədr müavini Turan İsmayılov "Finoko" bank olmayan kredit təşkilatının (BOKT) baş direktoru təyin edilib. O, yeni iş yerində vəzifəsinin icrasına cari ilin avqust ayından etibarən başlayıb.

Qeyd edək ki, T. İsmayılov 2007-ci ildən yeni təyinata qədər "Rabitəbank"da çalışıb. O, "Rabitəbank"dan əvvəl "Parabank" ASC-də İdarə Heyətinin sədr müavini vəzifəsində və Almaniya - Azərbaycan Fondunda (GAF) məsləhətçi vəzifəsində işləyib.

T. İsmayılov "Xəzər" Universitetinin İqtisadiyyat və menecment fakültəsini maliyyə ixtisası üzrə bitirib və ABŞ-ın Texas Texniki Universitetinin "Lawrence College"də təhsil alıb.

Məzunumuzu yüksək vəzifəyə təyin olunması münasibətilə təbrik edir, ona yeni uğurlar arzulayırıq.

Məzunumuzun təyinatı barədə ölkənin bəzi KİV-ləri məlumat vermişdir.



İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNDƏ BİRİNCİ İL TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ

Oktyabrın 27-də İqtisadiyyat və menecment fakültəsinin rəhbərliyi 2015/2016-cı tədris ilinin payız semestrinin aralıq imtahanlarını mütəşəkkil keçirmək məqsədilə 1-ci il tələbələri ilə görüş keçirdi.

Görüşdə fakültənin dekanı, professor İnqilab Əhmədov, dekan müavini professor Fuat Rəsulov və İqtisadiyyat və menencment departamentinin müdiri fəlsəfə doktoru Ceyhun Məmmədov tələbələrə imtahan qaydaları və Xəzər Universitetinin tələbləri haqqında məlumat verdilər, tələbələrin çoxsaylı suallarını cavablandırdılar.





PARTICIPATES IN THE INTERNATIONAL EDUCATION EXHIBITION

TBILISI 2015


On October 25, 2015, Khazar University participated in the International Education Exhibition held in Tbilisi, Georgia.

Turan Jafarova, Director of the International Affairs Office, and Aygul Isayeva, alumna of Khazar University (BA in Marketing, 2005) currently residing in Tbilisi, represented the university at the event.

Numerous local and foreign universities and organizations participated in the exhibition which attracted high school and university students, professionals and young people interested in continuing their education and professional development abroad.







TİFLİS–2015
BEYNƏLXALQ TƏHSİL SƏRGİSİNDƏ

Oktyabrın 22-də Xəzər Universiteti Gürcüstanın paytaxtı Tiflisdə keçirilən Beynəlxalq Təhsil Sərgisində iştirak etdi.

Beynəlxalq Əlaqələr Ofisinin direktoru Turan Cəfərova və hazırda Tiflisdə yaşayan Xəzər Universitetinin məzunu Aygül İsayeva (Marketinq üzrə bakalavr, 2005) universiteti tədbirdə təmsil etdilər.

Sərgidə təhsilini və peşəkar inkişafını xaricdə davam etdirmək istəyən orta məktəb şagirdləri, universitet tələbələri, mütəxəssislər və gənclərin diqqətini cəlb edən çoxlu sayda yerli və xarici universitetlər və təşkilatlar iştirak edirdilər.



GƏNC TARİXÇİLƏR
"KONSERVASİYA, RESTAVRASİYA VƏ ARXEOLOJİ ƏRAZİLƏRİN İDARƏSİ"
ADLI TƏLİMDƏ



MİRAS
MƏDƏNİ İRSİN
ÖYRƏNİLMƏSİNƏ KÖMƏK
İCTİMAİ BİRLİYİ



22 - 25 OKTYABR



Təhsil fakültəsinin tarix ixtisasının tələbələri Vahid Həsənov, Vüsal Həsənov, Bəbir Mədətov, Sənan Qurbanov və Vəcah Şükürova "Miras" İctimai Birliyi və İtaliyanın YUCOCU assosiasiyasının Ağsuda birgə təşkil etdikləri "Konservasiya, restavrasiya və arxeoloji ərazilərin idarəsi" adlı təlimdə iştirak etdilər.

Xəzər Universitetinin tələbələri professor Qafar Cəbiyevin və fəlsəfə doktoru Fariz Xəlilinin, eyni zamanda, Avropanın nüfuzlu universitetlərindən cəlb olunmuş alimlərin –İtaliyanın Calabria Universitetinin nümayəndəsi Silvestro Antonio Ruffolonun, Türkiyənin bərpa laboratoriyasının nümayəndəsi Uğur Gençin və bərpaçı-memar Uğur Qiyasinin təlimlərində iştirak etdilər.



Təlimlər zamanı tələbələr Mehrəvan-qala və Şıxməzid arxeoloji tədqiqat sahələrində təcrübə keçdilər. Tələbələr üçün Ağsu şəhərinə və İsmayıllıya təşkil edilmiş gəzintidə onlar "AZGRANATA - şirə və şərab istehsalı" zavodunda və Basqal kəlağayı sexində istehsal prosesi ilə tanış oldular. Tədbirin sonunda layihədə iştirak etmiş tələbələrə sertifikat verildi.

Tarix və arxeologiya departamenti tələbələrin arxeoloji təlimlərdə iştirakını diqqət mərkəzində saxlayır. Bəhs edilən təlimdə də tələbələr departamentin təşəbbüsü ilə iştirak etmişlər. Oktyabrın 26-da təlim iştirakçılarının təəssüratlarını öyrənmək üçün departamentdə onlarla görüş təşkil edildi. Departamentin müdiri Roza Arazova tələbələri təbrik etdi və arxeologiya peşəsini seçən gənclərin gələcəkdə də bu cür tədbirlərdə iştiraklarının vacibliyini vurğuladı.









October 22-25

YOUNG HISTORIANS PARTICIPATE IN "CONSERVATION, RESTORATION AND MANAGEMENT OF ARCHEOLOGICAL AREAS" TRAINING

Five history majors from the School of Education participated in the "Conservation, Restoration and Management of Archeological Areas" Training jointly organized by Miras Public Union and YUCOCU Association of Italy. The participants included Vahid Hasanov, Vusal Hasanov, Babir Madatov, Sanan Gurbanov and Vajah Shukurova.



The training was led by Professor Gafar Jabiyev and Dr. Fariz Khalil of Khazar University as well as scholars invited from reputable universities of Europe including Silvestro Antonio Ruffolo from Italy's Calabria University; Ugur Cenc, representative of Turkey's Restoration Laboratory; and Ugur Qiyas, restoration architect from the same laboratory. Students were given practical experience at the Mehrevangala and Shikhmazid archeological sites during the training. Students also toured AZGRANATA juice and wine factory on their trip to Aghsu and Ismayilli, and they saw how silk handkerchiefs are made at the factory in Basgal, a suburb of Ismayilli. At the end of the training, students were given certificates.

The Department of History and Archeology makes students' practical experience a priority. This training was made possible by the initiative of the Department. On October 26, a meeting was held at the Department for students to share their experiences from the training. Dr. Roza Arazova, Chair of the Department, congratulated the students and emphasized the importance of their participation in these types of events for their future career success.



Students also toured AZGRANATA juice and wine factory on their trip to Aghsu and Ismayilli, and they saw how silk handkerchiefs are made at the factory in Basgal, a suburb of Ismayilli.





ТАГИСОЙ НИЗАМИ

Литература / Литература / Евразийская муза







САМЫЙ ТРУДНОПЕРЕВОДИМЫЙ И САМЫЙ ЛЮБИМЫЙ

Поэзию Сергея Есенина всегда щедро переводили на азербайджанский язык. В Азербайджане его с любовью читали в советское время, читают и сейчас. Достаточно сказать, что начиная с конца 20-х гг. XX века стихи, входящие в «Персидские мотивы», неоднократно становились объектом неподдельного интереса азербайджанских переводчиков. Первым переводить стихи Есенина начал Сулейман Рустам (1906–1989) в 1928 году, и этот процесс не останавливается по сей день. За все прошедшие годы интерес к поэзии великого русского поэта не ослабевает ни у переводчиков, ни у читателей.

Сергея Есенина переводили наиболее именитые переводчики – народный поэт Сулейман Рустам, Алиага Кюрчайлы (1928–1980), Ахмед Джамиль (1913–1977), Алекбер Зиятай (1913–1982), Тофиг Байрам (1934–1991), Сиявуш Мамедзаде (р. 1935), Эйваз Борчалы (р. 1938), Фируз Мустафа (р. 1952) и другие. Изучением и исследованием его жизни и творчества, особенно бакинского периода, занимались не менее известные литературоведы – академик Бекир Набиев (1930–2012), профессор Сабир Турабов (1931–2008), профессор Амирхан Халилов (р. 1937) и многие другие.

В Азербайджане всегда отмечались и даты рождения Есенина. Особенно широко праздновался 100-летний юбилей поэта. Было даже опубликовано специальное распоряжение Президента Азербайджанской Республики о праздновании этой даты. В тот же год в Азербайджанском педагогическом институте русского языка и литературы им. М.Ф. Ахундова (ныне Бакинский славянский университет) подготовили отдельный сборник, посвящённый знаменательному событию. В сборнике помещались материалы, статьи и тезисы известных учёных, изучающих отдельные вопросы творчества русского гения.

Выходящие в Азербайджане журналы «Азербайджан мектеби» («Школа Азербайджана»), «Русский язык и литература в азербайджанской школе», «Русский язык и литература в Азербайджане», газеты «Бакинский рабочий», «Вышка», «Вечерний Баку», «Молодёжь Азербайджана» и другие рады были предоставить свои

страницы для публикации произведений поэта, а также для материалов, освещающих отдельные стороны творческой мастерской Сергея Есенина. Для учёных, занимающихся проблемами взаимосвязей, основным объектом научного исследования стали сами произведения поэта. Многое в этом направлении, особенно за последние два десятилетия, изучая бакинский период жизни Есенина, сделала доцент Бакинского славянского университета Галина Шипулина. Наряду с фундаментальными статьями она подготовила и издала многотомный «Словарь языка Сергея Есенина» – по сути, первое лексикографическое описание лирики и художественной прозы русского классика.

С самого начала XXI века на арену выходит другой ценитель поэзии Сергея Есенина (популяризатор, переводчик и исследователь) Исахан Исаханлы, лауреат премии Рязанской области имени С.А. Есенина в области литературы и искусства. Исаханлы, с одной стороны, переводит стихи поэта, с другой – целенаправленно и неустанно исследует доселе неизвестные страницы бакинской жизни и творчества Есенина. Благодаря его усилиям увидели свет монографии «Неповторимый цветник поэзии – Сергей Есенин» (Баку, 2010) и «Незадаром ему мигнули очи. Есенин в Баку» (Баку, 2012), куда вошли важные материалы, связанные с жизнью поэта, такие как его встречи с известным азербайджанским певцом мугама Джаббаром Карягдыоглу, с выдающимся поэтом – мастером жанра газели Алиагой Вахидом. В монографиях также размещены фотографии Есенина и тех мест, в которых он побывал, стихи азербайджанских поэтов, посвящённые русскому классику, и многое другое. Каждый материал, представленный в книге, приковывает внимание своей оригинальностью, мастерством подачи фактов. В обеих книгах И. Исаханлы специальное место отводится самоубийству (или версии об убийстве) Сергея Есенина, откликам на него в бакинской прессе. Деятели культуры и литературы хорошо знали, что пребывание в Баку – особый период в судьбе поэта. Так, например, один из авторов Э.А. Хлысталов в статье «Как погиб Сергей Есенин?» писал: «Известно, что поэт четырежды приезжал в Азербайджан, здесь им написаны выдающиеся произведения, но только сейчас (т.е. в 1989 г.) стало известно, что дважды Есенин приезжал в Баку, чтобы скрыться от ареста и судебной расправы, которая против него готовилась в Москве. Именно поэтому восстановление всех обстоятельств жизни поэта в Азербайджане представляет несомненный интерес… Я не сомневаюсь, что в Азербайджане живёт много людей, которые лично знали С. А. Есенина или знают о его деятельности в Баку от своих родителей, родственников и знакомых. Их воспоминания помогут открыть много нового о выдающемся русском поэте» (Газета «Бакинский рабочий», 25 ноября 1989 г.).

Все эти версии также скрупулёзно анализируются Исаханлы в обеих его монографиях.

Вскоре после издания книги «Незадаром ему мигнули очи. Есенин в Баку» появилась другая, не менее интересная книга «Сергей Есенин. «Персидские мотивы» (Баку, 2015) на азербайджанском языке, редактором и составителем которой стал Исахан Исаханлы. В книгу кроме вступительного слова включены три статьи составителя: «Персидские мотивы: вечная память любви к Ирану и Баку», «Образы женщин в «Персидских мотивах» и «Переводы самого непереводимого поэта». Следует отметить, что Исаханлы в последнее время особенно тщательно исследует «бакинскую судьбу» Есенина. Его статьи о русском поэте постоянно появляются не только в различных органах азербайджанской периодической печати, но и в российских изданиях и, как правило, привлекают к себе внимание читателей.

В отличие от девяти других переводчиков, обратившихся к «Персидским мотивам», только три поэта – Алиага Кюрчайлы, Сиявуш Мамедзаде и Эйваз Борчалы – полностью перевели все 15 стихов цикла. При близком знакомстве с переводами становится очевидно, что переводить стихи Сергея Есенина – очень сложное дело. Алиага Кюрчайлы писал: «Есенин – один из тех поэтов, который читается больше всех и с любовью. В то же время он самый труднопереводимый поэт. Это, по-моему, связано с тем, что его поэзия колоритна и своеобразна. Я как переводчик первой книги, выходящей на азербайджанском языке, эту трудность, можно сказать, ощущал в

процессе работы в каждой строке, в каждом слове и выражении». Однако, несмотря на имеющиеся сложности, азербайджанские переводчики стремились донести до читателя всю прелесть поэзии Сергея Есенина. В книгу «Сергей Есенин. «Персидские мотивы» Исахан Исаханлы включил все переводы азербайджанских авторов, осуществлённые с 1928 по 2013 год девятью переводчиками (всего 61 перевод). Азербайджанские читатели, знакомясь с различными интерпретациями одних и тех же стихотворений, получают возможность заглянуть в творческую лабораторию каждого из переводчиков, сопоставить переводы между собой, сравнить их с оригиналом. Одним словом, создаётся целостная картина азербайджанских переводов цикла «Персидские мотивы».

Несмотря на то что в Азербайджане о переводах поэзии Сергея Есенина на азербайджанский язык написаны кандидатские и докторские диссертации (и отдельные главы, посвящённые этой проблематике), книга «Сергей Есенин. «Персидские мотивы» открывает новые возможности для исследования разных сторон и вопросов этого цикла.

Одним из достоинств последней книги Исаханлы является то, что автор при составлении книги выступает одновременно и как переводчик, и как исследователь поэзии Есенина. Как исследователь он особо останавливается на вопросе практических и теоретических проблем перевода. Разделяя сомнение о переводимости произведений отдельных поэтов, Исаханлы в то же время не принимает мысль о «непереводимости» вообще. По его мнению, тут вопрос только в том, как найти на родном языке необходимую языковую и поэтическую адекватность, передающую дух и гармонию оригинала. Безусловно, всегда притягательны переводы, чутко и ярко доносящие интонацию и благозвучие оригинала. Однако сохранить эти особенности не всегда удаётся. В процессе работы переводчик должен стремиться свести к минимуму потери оригинальных выражений и найти лексические единицы, соответствующие идее и духу подлинника. Поэтому стихи Есенина в азербайджанских переводах в зависимости от мастерства переводчиков или выигрывали, или проигрывали. Но, несмотря на некоторые издержки, именно благодаря усилиям переводчиков Сергей Есенин стал самым любимым поэтом из инонациональных авторов.

Поэзию русского классика в Азербайджане в разное время переводили 28 поэтов. Помимо этого, в некоторых источниках имеется информация о переводах его стихов и другими авторами. До сих пор на азербайджанский язык переведено 121 произведение Есенина в 236 переводных вариантах. Существуют стихи, переведённые тремя, пятью, шестью, десятью, даже 14 переводчиками, что, несомненно, является ярким свидетельством неподдельного интереса азербайджанских переводчиков к творчеству русского поэта.

Популяризации поэзии Сергея Есенина в Азербайджане всегда уделялось большое внимание. В частности, проводились дни поэзии Есенина, различные диспуты, конкурсы по художественному чтению, в которых участвовали артисты, чтецы, школьники, студенты, о чём писали местные газеты и различные СМИ.

В последнее десятилетие в изучении и издании переводов произведений Есенина многое делает руководство Университета Хазар. В специально подготовленных сборниках представлены не только новые переводы, но и критические материалы относительно их качества, где наряду с прежними переводчиками выступают со своими свежими переводами Гамлет Исаханлы, Исахан Исаханлы, Князь Аслан и другие. Можно сказать, что за последние годы Университет Хазар стал одним из ведущих научных центров в области изучения творческого наследия Есенина. Заметим, что все три книги И. Исаханлы выпущены в издательстве «Хазар Университети». Кроме этого, издаваемый в Университете Хазар журнал "Xəzər Xəbər" («Хазар вестник») как центр, осуществляющий координацию по переводу и распространению, часто публикует переводы стихов Сергея Есенина, статьи и материалы, посвящённые творчеству этого выдающегося русского лирика.

19.11.2015

TM PARLAMENTİNİN NÖVBƏTİ İCLASI

Noyabrın 8-də Tələbə Məclisi Parlamentinin növbəti iclası keçirildi. İclasda imtahanlarla bağlı bir neçə məsələ, həmçinin gələcək planlar müzakirə olundu. Parlamentə yeni üzv olan tələbələrə üzvlük vəsiqələrinin yaxın zamanda təqdim olunması, *Khazar Chess Open* şahmat turnirinin, 3-cü Tələbə Məclisi Bilik yarışmasının keçirilməsi qərara alındı.



"XƏZƏR"İN ƏMƏKDAŞI BEYNƏLXALQ KONFRANSDA

Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov noyabrın 11-dən 16-dək Belarusun Minsk şəhərində BMT tərəfindən təşkil olunan "Təhsildə fəlakət riskinin azaldılması" (*Disaster Risk reduction in education*) adlı beynəlxalq konfransda **"Azərbaycan təhsil müəssisələrində təbii fəlakətlərə hazırlıq"** mövzusunda çıxış etmişdir.


DEPARTMENT CHAIR AT INTERNATIONAL CONFERENCE

On November 11-16, 2015, Dr. Rovshan Abbasov, Chair of the Department of Geography and the Environment, participated in an international conference entitled Disaster Risk Reduction in Education coordinated by the United Nations in Minsk, Belarus.

R. Abbasov made a presentation on **"Preparation for Natural Hazards in Azerbaijani Higher Education Institutions."**

ƏMƏKDAŞIMIZ AMERİKADA ÇAP OLUNMUŞ KİTABIN REDAKTORU VƏ ÖN SÖZ MÜƏLLİFİDİR

Azərbaycan yazıçısı Oqtay Əliyevin (Ərgünəş) "Hourglass" ("Qum saatı") adlı kitabı Amerikanın "Charleston" nəşriyyatı tərəfindən çap olunmuşdur. Kitaba müəllifin esse, mənsur şeir və hekayələri, həmçinin yumoristik əsərləri daxil edilmişdir. Kitabın redaktoru və ön söz müəllifi Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər üzrə bölmə müdiri, fəlsəfə doktoru Eldar Şahgəldiyevdir.







Noyabrın 16-da məşhur amerikalı caz vokalisti, müxtəlif mükafatlar qazanmış Qabriel Stravelli və onun qrupu Xəzər Universitetində konsert verdi. Konsert ABŞ-ın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfirliyi və Xəzər Universitetinin birgə əməkdaşlığı ilə keçirildi.

Xəzər Universitetinin rektoru Hassan Niknafs və ABŞ Səfirliyinin İctimai əlaqələr üzrə müşaviri Stiven Qays qonaqları və qrupu salamlayaraq tədbiri açıq elan etdilər.

Qrup klassik Amerika caz musiqisi ilə yanaşı, bir neçə orijinal mahnı da ifa etdi. Konsertdə ən əsas məqam isə Qabriel Stravellinin Xəzər Universitetinin kamera orkestri ilə birgə ifa etdiyi "Laçın" mahnısı oldu.

Qabriel Stravelli və qrupu ABŞ Dövlət Departamentinin Amerika Musiqisinin Xaricdə Təbliği Proqramı çərçivəsində Azərbaycanda ilk dəfədir ki, konsert verirlər. Bu proqram tanınmış Amerika musiqiçilərinin digər ölkələrə səfərini nəzərdə tutaraq, mədəniyyət sahəsində əməkdaşlığı inkişaf etdirir. Qabriel Stravellinin Bakıdakı açıq konsertləri noyabrın 18-nə qədər davam etmişdir.









GABRIELLE STRAVELLI PERFORMED AT KHAZAR UNIVERSITY



On November 16, award-winning vocalist Gabrielle Stravelli and her band performed at Khazar University. The concert was organized by the United States Embassy in Azerbaijan in cooperation with Khazar University.

The rector of Khazar University, Dr. Hassan Niknafs and **Stephen Guice,** Public Affairs Officer at the U.S. Embassy opened the concert and welcomed the guests and the band.

The band performed numerous classical American jazz compositions as well as some original songs. A highlight of the concert was "Lachin" song, which Gabrielle Stravelli performed together with the chamber orchestra of Khazar University.

Gabrielle Stravelli and her group performs in Azerbaijan for the first time under the auspices of the U.S. Department of State's American Music Abroad Program, which brings prominent American musicians to countries throughout the world to foster cross-cultural understanding and collaboration. Public concerts of Gabrielle Stravelli will continue in Baku until November 18, 2015.





Noyabrın 16-da Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı ilə universitetdə "Azər-Sun Holdinq" şirkətinin işə qəbul üzrə aparıcı mütəxəssisi Ceyran Fərazi və işə qəbul üzrə müdir Elçin Azimli seminar keçirdilər. Universitet tələbələrinin iştirak etdikləri seminarda "Düzgün CV-nin tərtib olunması", "İşə müraciət qaydası", "İş müsahibəsinə hazırlıq", "Karyera günlərinə necə qatılmalı", "Sosial cəlbetmə" mövzuları ətrafında müzakirələr aparıldı.

Sonda tələbələri maraqlandıran suallar cavablandırıldı.

İRAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN RƏHBƏRİ "XƏZƏR"DƏ

Noyabrın 18-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Bakıdakı İran Mədəniyyət Mərkəzinin rəhbəri Dr. Seyid İbrahim İbrahimini qəbul etdi. Görüşdə Xəzər Universiteti və İran universitetləri arasında azərbaycanşünaslıq və iranşünaslıq sahələrində əməkdaşlığın genişləndirilməsi, elmi və bədii ədəbiyyatın farscadan azərbaycancaya və azərbaycancadan farscaya tərcüməsi və digər qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olundu.

TARİX MUZEYİNİN ƏMƏKDAŞI İLƏ GÖRÜŞ

Noyabrın 17-də Tarix və arxeologiya departamentinin Milli Azərbaycan Tarixi Muzeyi ilə əməkdaşlığı çərçivəsində Təhsil fakültəsinin tarix ixtisasının birinci il tələbələrinin heraldika elmi üzrə mütəxəssis, Milli Azərbaycan Tarixi Muzeyinin Xarici əlaqələr və sərgilərin təşkili şöbəsinin müdiri, fəlsəfə doktoru Səbuhi Əhmədovla görüşü təşkil edildi. Tədbir tələbələrin ixtisaslarını daha dərindən mənimsəməsi məqsədilə təşkil olunmuşdu.

Tədbirin əvvəlində departamentin müdiri Roza Arazova və Səbuhi Əhmədov tələbələri 17 Noyabr – Milli Dirçəliş Günü münasibətilə təbrik etdilər. Görüşdə departamentin müəllimi Orxan Zamanov da iştirak edirdi.

Səbuhi Əhmədov tələbələrə heraldikanın nəzəri əsasları və Azərbaycan heraldikası haqqında geniş videotəqdimat keçirdi.

GİORGİ LEONİDZE



Gürcüstanın xalq şairi Giorgi Leonidze 1899-cu ildə anadan olub. Tiflis ilahiyyat seminariyasını və Tiflis universitetinin filologiya fakültəsini bitirmişdir. Yaradıcılığında əsas yeri poeziya tutsa da, nəsr əsərləri də yazmışdır. "Samqori", "Portoxala" tarixi poemaları, "Sehrli ağac" adlı hekayələr toplusu və digər kitabları çap edilmişdir.

Gürcüstan Elmlər Akademiyası Ş.Rustaveli adına Ədəbiyyat İnstitutunun direktoru, Gürcüstan Yazıçılar İttifaqı İdarə Heyətinin sədri, "Baxtrioni" ədəbiyyat qəzetinin redaktoru və digər məsul vəzifələrdə çalışmışdır.

Görkəmli ədib üç dəfə Stalin mükafatı laureatı olmuş, iki Lenin ordeni və digər orden və medallarla təltif edilmişdir.

Giorgi Leonidze 1966-cı ildə vəfat etmişdir.Tiflisdə heykəli ucaldılmışdır.

Vaxtilə onun şeirlərini Azərbaycan dilinə Əhməd Cəmil, Əflatun Saraclı, Rəfiq Zəka, Məmməd Araz, Əli Kərim, Tofiq Bayram, Əlixan Binnətoğlu tərcümə etmişlər.

Ədibin oxucularımıza təqdim olunan hekayəsini Gürcüstanda yaşayan tərcüməçi və yazar Emin Mahmudov dilimizə tərcümə edib.

DİLƏK AĞACI

(Hekayə)

Dyakon Elepter axşamüstü kənd meydanında durmuşdu və kəndlilərlə söhbət edərək ürəyini boşaldırdı.

Bu həmin Elepterdir ki, ötən ay bayram şənliyinə gəlmiş nadinc qonaqlar onu döymüşdülər. Kəndin keşişi bu Elepter barədə deyərdi: İki Elepterim olsaydı, birini hökmən boğardım!

Dyakon Elepter daha çox şərab adamı idi, nəinki ruhani. Kef çəkməyi sevən, nəşəli, şərab düşkünü! Xeyir-dua zamanı Allah kəlamını tamam başdansovdu, donquldana-donquldana oxuyardı.

Lakin "Zəbur" surəsinin "Şərab insan qəlbini sevindirir" yazılan hissəsini elə böyük məhəbbətlə, elə şövqlə və səsini ucaldaraq deyirdi ki, gəl görəsən.

Qaranlıq düşənədək kənd naxırı çöldən qayıtdı, hamı öz mal-qarasına doğru yönəldi, kənd meydanı boşaldı, kasıb kəndli Elioz işsiz Elepterin çənəsinin altına düşdü.

- Deməli, sən bunu da bilmirsən ki, zavallı qardaş, - deyə, Elioza müraciət etdi, - dirilik bulağı ölməzlik suyudur?

Dyakon oradan keçən qız Abdianın əlindən su səhəngini aldı, əvvəlcə üzünə su səpdi, sonra ağzını yaxaladı, sonra səhəngi başına çəkdi və razı qalmış halda, xoşbəxtliyə qovuşmuş kimi, sakitcə dedi:

- Vay mənim başıma, sizin əlinizdən ölüm qurtarım və yoxa çıxım, məgər bilmirsənmi bu dirilik bulağı nədir?

- O bulaq haradadır?

- Tetrobiani dağlarında!

- Nəyin dərmanıdır? - Kəndli Elioz utancaqlıqla soruşdu.

- Dərman yox ki, ölməzlikdir!

- Ölməzlik nə deməkdir?

- Həmişə sağ-salamat olacaqsan!

Elioz diksindi, geri çəkildi.

- Yox, istəmirəm! Bu əziyyətdə və kasıblıqda nəyimə gərəkdir?

- Kimdir sənə verən, ay yazıq! Məgər sənin kimiləri o bulağın yanına buraxarlarmı?! - Və gözlərini bərəltdi.

Dyakon Elepter incimiş halda Elioza baxırdı, kəşf etdiyi ölməzlik suyundan imtina edən bu savadsız və kobud adam onu təəccübləndirmişdi.

Dyakon nahaq yerə qəzəblənirdi. Körpə uşaqlı Elioz imkansız yoxsul idi.

- Elə olmağına elədir, amma ac it də ondan çörək almaz! - deyərdilər qonşuları və doğrudan da lüt-üryan, azuqəsiz Eliozun başına uçub-tökülən torpaq damının qarşısında həmişə gölməçə olurdu, yaşılaçalan milçəklərlə dolu... cındırlar... kir-pasaq... achq... zir-zibil... Əzazil yoxsulluğun ölməzliyi yazıq Eliozun nəyinə gərək idi?

Elioz incə qəlbli adam idi və eyni zamanda həddindən artıq xəyalpərəst. Həyatın məşəqqətləri onun qəlbində arzu qığılcımlarını söndürə bilməmişdi və özünün

uydurduğu qəribə arzularla özünü qoruyurdu vəhşi kimi hücuma keçən gerçəkliklərdən.

Hələ qızıl yumurtalı, qızıl doğan toyuq axtarırdı kolların dibində. Sonra hər şeyə qadir balıq tutmaq arzusuna düşdü və bütün günləri ac-susuz İorinin sahilində oturdu; İorini təmizlədi, qarşısını kəsdi, yan məcraya ötürdü, tor qurdu, tilov atdı, lakin o sirli balığı tuta bilmədi ki, bilmədi!

İndi də Xerevandi dilək ağacını görməyi və onun meyvəsini yeməyi saldı ürəyinə: bu arzusunun çin olması ilə onun varlanması birgə baş verməli idi!

Elioz inanırdı: yanvarın sərt şaxtalı gecəsində, əgər gecəyarı meşəyə düşsən və səmanın açılmasına şahid ola bilsən, onda zərif çiçəkli sehirli ağacı da görə bilərsən. Heç bir gözəllik ondan üstün ola bilməz. Həmin ağac, sən demə, bir saatda həm çiçəkləyir, həm də meyvə verir: əgər onun meyvəsini ələ keçirsən, bircə dişləmək və kifayətdir!

Yoxsulluq həmin andaca səndən həmişəlik əl çəkəcəkdir! Bunu kim demişdi, kim onun ağlına salmışdı, bu gün də bilmirəm!

Burası isə bir həqiqət idi ki, yanvar gecələri, şaxtadan səma parçalanan zaman, cır-cındır içindəki Elioz meşədə tez-tez yalnız gəzib dolaşırdı, səmanın açılmasını və həmin dilək ağacını görmək intizarında.

- Ayıdan qorxmursanmı, yaxud canavardan, ya da çaqqaldan, yalın əllə gəzirsən bu meşədə!

Lakin Eliozun gözlərinə qırmızımtıl-sarımtıl parlayan, çiçəklənmiş ağacdan başqa heç nə görünmürdü - nə təhlükə, nə də qorxu. Və onun cır-cındıra bürünmüş bədəni də arzu ilə isinirdi və görünür, dözülməz soyuğu hiss etmirdi.

Arvad-uşağı yalvarmaqla ona meşədə gəzməyə mane olurdu, lakin o, öz inadından əl çəkmirdi. Axırda buna öyrəşdilər və başını boşladılar. Meşədən qayıdanda odun şələsi gətirirdi və ailədə buna sevinirdilər də.

- Neylədin, Elioz, dilək ağacını tapdınmı? - Gülümsəyərək soruşurduq.

- Tapa bilməmişəm, ancaq tapacağam!

- Meşədə ki, soyuqdur, titrəyirsən və bu qılınc kimi doğrayıcı şaxtada tir-tir əsirsən...

Və, budur, bir qış səhəri, şaxta tüğyan edən zaman meşədən donmuş Eliozu xizəkdə gətirdilər. Dilək ağacının axtarışında, onun keşiyini çəkməkdə və intizarında, şaxtadan çiçəkləmiş ağacın altında donmuşdu.

- Yazıq, doğrudan da, elə gözəl ağac seçmişdi ki, ona baxmaqdan yaxşı heç nə ola bilməzdi. Şaxta min cür çiçəklə, krujeva haşiyələrlə bəzəmişdi. Bütün şəkillərə qərq olmuşdu. - deyirdi qaranlıq gecədə təsadüfən donmuş Eliozun üstünə gedib çıxmış meşəbəyi Bodaveli.

Bu, həqiqətən belə idi...

Eliozun tabutunu uçub dağılmaqda olan samanlığının taxtalarından hazırladılar.

Dyakon Elepter Eliozun ehsanında bir dəfə yenə sərxoş oldu yə bununla da növbəti diləyinə çatdı. O biri gün yalnız dərdi dağıdacaq şərabsızlıqdan şikayət edirdi.

Yazıq Elioz isə yenə də mənfur həqiqətdən qaça bilmədi və dilək ağacına qurban getdi.

Kağız üzərində qafiyələrlə danışanlar yalnız şairlər deyillər, poetik gözlə, poetik qəlblə və böyük arzularla şüalanmış başqaları da çox gəzir bu dünyada!



CHAMBER ORCHESTRA OF KHAZAR UNIVERSITY PERFORMS WITH GABRIELLE STRAVELLI AT THE NATIONAL ARTS MUSEUM

On November 17, 2015, the chamber orchestra of Khazar University performed at the National Arts Museum with the famous award-winning American jazz vocalist Gabrielle Stravelli and her band. This concert was one of the public concerts Gabrielle Stravelli gave in Baku under the auspices of the U.S. Department of State's American Music Abroad Program, which brings prominent American musicians to countries throughout the world to foster cross-cultural understanding and collaboration.

The orchestra was invited to perform with Gabrielle Stravelli and her band again after the concert at Khazar University organized by the U.S. Embassy in Azerbaijan, during which the musicians played several songs together.

Professor Hamlet Isaxanli, the Founder of Khazar University and the Chairman of the Board of Directors and Trustees, attended the concert. His Excellency Robert F. Cekuta, the Ambassador of the USA to Azerbaijan and other foreign guests also participated.



OSİP MANDELŞTAM



Tərcümə işi, əsasən də rus ədəbiyyatından bədii tərcümələr çoxdandır ki, həyatımın bir parçasına çevrilib. Anna Axmatova, Marina Svetayeva, Eduard Asadov, Fyodor Tütçev, Mixail Sinelnikov və başqa rus şairlərinin əsərlərini ana dilimizə çevirməkdən böyük zövq alıram.

Bir yazarı tərcümə etmək - onun iç dünyasına müdaxilə etmək, onu anlamağa çalışmaq və bu müddət ərzində başqa bir rola girmək deməkdir.

Çoxu artıq haqq dünyasında olan dahiləri yada salmaq, başqa bir xalqa təqdim etmək, sevib-sevdirmək - onları yenidən bu dünyaya qaytarmağa bərabərdir.

Taleyi - üzünü heç zaman görmədiyim, lakin hər zaman sevgi duyduğum babam Şərif bəy Şıxlinskinin taleyinə bənzəyən Osip Mandelştamın şeirlərinə də, təbii ki, biganə qala bilməzdim. O, bir başqa gözəlliyə malik şeirlərilə ölməzliyə qovuşmuşlardan, adını ədəbiyyata və əbədiyyətə həkk etmişlərdəndir.

Ümidvaram ki, Azərbaycan oxucusu da bu bənzərsiz yazarın şeirlərini mənim qədər sevəcək.

Tərcüməçi

ŞEİRLƏR

***

Zərif bir axşamdır... Alaqaranlıq...
Çırpınan ləpələr yorur dənizi.
İslaq külək əsib hərdən bir anlıq
Duzlu bir örpəyə bürüyür bizi.

İşıqlar qaralır, qarışır aləm,
Dalğalar sahili meyxoş eyləyir...
Yersiz sevinc kimi səbəbsiz bu qəm
Ağır bir yük olub qəddimi əyir.

Gəzir qulağımda dəniz nəfəsi,
Hava da məst edir, gecə də qara...
Mahnı sədaları, musiqi səsi
Sanki layla çalır yorulanlara...

***

Ay gecə! Nəyinə gərəyəm ki, mən?..
Mən ki, həsrətlərə hədəf kimiyəm.
Bəyaz mirvarisi çıxmış əlindən,
Sahilə atılmış sədəf kimiyəm.

Sən ilham alarkən gur ləpələrdən
Duymaq istəməzsən söz-söhbətimi.
Amma ki, salarsan yadına birdən,
Lazımsız bildiyin məhəbbətimi.

Uzanıb yanımda qumlar üstünə,
Əynimə nəvaziş geyindirərsən.
Bunca ayrılığın durub qəsdinə,
Könlümü doyunca sevindirərsən.

Atılmış sədəfin səni bağışlar,
Sevgi nəğməsini oxuyar sular.
Dənizlə, şəfəqlə, mehlə, yağışla
Kimsəsiz qəlb evim isinər, dolar.

***

Mətbəxdə oturaq gözlərdən uzaq,
Neft ətri qoxuyan gecəyə baxaq.

Masanın üstündə bıçaq və çörək...
İstəsən ocağı yandır, isinək.

Ya da kəndir gətir, səbət toxuyaq,
Sübhədək gizlicə nəğmə oxuyaq.

Minək bir qatara, itirək izi,
Heç zaman heç kimsə tapmasın bizi...

***

Bu acı soyuqda titrəyirəm mən,
Dilim də tutulub, açılmır keyim.
Göylər hakimisə - qızıl şahzadəm
Mənə hökm eləyir nəğmələr deyim.

Aşiq ol, həsrət çək, yazıq nəğməkar!
Ağla ki, bu aləm duysun səsini!
Tutub əllərində, özünlə apar
Bu tənha, atılmış yer kürəsini.

...Demək belə imiş həqiqi hisslər -
Sirli kainatla ürək sazişi!
Ruhunu göynədib bəlkə təmizlər?
Kimə bəllidir ki, talenin işi!

Görəsən nə olar sapıb yolundan
Alışan ulduz da üşüsə birdən?
Paslı bir iynətək batsa qoluma,
Duysam biganəlik təmasını mən...

***

Neyləyim, ilahi, bu canı axı?
Bu qədər tənhadır, bu qədər yaxın...

Nəfəsim, sevincim, həyəcanım var,
Sakit həyatıma kimdi səbəbkar?

Özüm həm çiçəyəm, həm də ki, bağban,
Mənə bənzərlərə bu dünya - zindan.

Sözlərim iz salıb... boylanmışam mən
Ömrün əbədiyyət pəncərəsindən.

Yollarım- izlərim bəlkə az olub...
Hər şey vaxt ötdükcə tanınmaz olub...

Lakin illər ötsə, unutsa hər kəs,
Vurduğum naxışlar silinə bilməz!

***

Duyuldu ahəstə, zərifcə bir səs,
Meşə sükutunu pozdu bu gecə;
Heç bir şey gözlərdən saxlana bilməz -
Bir bəhər dərmişdi kimsə gizlicə...

***

Bənizin
incədən incədir sənin,
Əllərin
Bəyazdan bəyazdır!
Əfsus,
Övladı deyilsən
Sən bu aləmin,
Səndə hər nə varsa -
Göylərə məxsus!

Göylərə məxsusdur
Şux barmaqların,
Giley-güzarının
Şirinliyi də.
O asta,
Mehriban
Danışıqların,
Gözəl gözlərinin
Dərinliyi də...

***


Nağıl kitabları oxuyub yenə,
Məsum xəyalları yığıb başıma,
Son qoya biləydim qəm yaddaşıma,
Dərdimi yollayıb dünənki günə.

Bu həyat yamanca bezdirib məni...
Heç nə də ummuram daha ömürdən!
Lakin dönmür ürək doğduğu yerdən,
Sevməyə bilmirəm doğma vətəni!

Salıncaq qurduğum o hüzünlü bağ -
Qəm-qüssəm olmayan qayğısız yerim...
...Yəqin sayıqlayır düşüncələrim
Küknarlar altında, hamıdan uzaq...

Ruscadan çevirdi:
Afaq Şıxlı (Moskva)





VƏTƏNDƏ VƏTƏN HƏSRƏTİ

MEHRİBAN SULTAN

Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti,

Azərbaycan Jurnalistlər Birliyinin, Naxçıvan Mətbuat Şurası İdarə Heyətinin üzvü

Zəhmət Şahverdiyev və Rövşən Asifoğlunun "Mənalı ömrün səhifələri" adlı kitabı haqqında

Üfüq boyu göz işlədikcə gözəlliyinə daldığın başın üzərindəki aydın səma, ciyərdolusu içinə çəkdiyin bir ovuc sarı sünbül, ya da bir bənövşə, kəklikotu ətri ilə səni bihuş edən hava, dirilik suyu buz bulaqlar, qışı da, yayı da zirvəsi ağaran, yazda ətəyi al-əlvan dağlar, yaşıl yamaclar... Bir sözlə, "Cənnət" dediyin Vətən eləcə evinin kandarında qədəm basdığın torpaqdan başlayır. Yoğrulduğumuz torpaqdan, gömüləcəyimiz torpaqdan. Vətən bugünkü varidatımız, gələcəyə daşıdığımız mirasdır, əmanətdir. Bir də qan töküb, can verib haqqa qovuşan, haqqına qovuşdura bilmədiyimiz şəhidlərin nigaran ruhlarıdır Vətən! Üzü Füzulidən bu yana dillərdə dastan olan, qurbətdə çəkilən həsrətin adıdır Vətən! Nə acı ki, taleyimizə, qismətimizə qürbətdə Vətən həsrəti ilə yanaşı Vətəndə vətənsizlik əzabı da yazılıbmış. Vətənindən olmaq, sən demə, hələ dərdin yarısı imiş. Vay odur ki, gözün baxa-baxa, ürəyin yana-yana

əlindən gedə.

Bu təəssüratlar əlimə yenicə aldığım, Naxçıvan Dövlət Universitetinin əməkdaşları – Azərbaycan tarixi kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar müəllimi, tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev və Pedaqoji fakültənin baş müəllimi, texnika üzrə fəlsəfə doktoru Rövşən Asifoğlunun birgə yazdığı "Mənalı ömrün səhifələri" adlı kitabı vərəqləyərkən məndə yarandı. Dərələyəzsiz dərələyəzlilərin bu kitabı "Vətən" və "Vətən sevgisi", "yurd həsrəti" məfhumlarının doğrudürüst yozumudur, zənnimcə. İlk olaraq müəlliflər dünya gözündə ermənilərə olan lənət damğası ilə "Siz busunuz, bunu özünüz də etiraf etmisiniz, Şərqin, Avropanın tarixi şəxsiyyətləri, ən görkəmli simaları da yazıb" deyə, onları ifşa edir, bugünkü gəncliyi "Bil ki, düşmənin kimdir!" deyə ayıq salırlar. "Rövşən Asifoğunun ürəyindən keçənlər"i, "Dərələyəz mahalı" adlı II fəsli oxuduqda "Bayatı çəkib ağı demək nənələrimizə, analarımıza gəlib. Kişi ağısı, kişi ağrısı nə yaman olurmuş, Allah! İllah da ki, yurd itkisindən söhbət gedə!" harayı qopdu içimdən.

Kitab Atropatenanın ərazisi olmuş, Şərur-Dərələyəz tarixi vilayətinin dağlıq hissəsi Dərələyəz mahalının əzəli Azərbaycan torpağı olduğunu təsdiqləyən qiymətli elmi faktlarla zəngindir. Vərəqlədikcə Dərələyəzin tarixi, ərazisi, daşı, qayası, təbiət abidələri, suyu, insanları ilə baş-başa, nəfəs-nəfəsə qalır, heç vaxt görmədiyin bir torpağın rəngini, havasını duyursan. Vətəni Vətən edən bir də onun qeyrətli övladları, dəyərli, yanarlı ziyalılarıdır. Kitabın əsas qəhrəmanı – Vətən adını ucaldan, əsl vətəndaş, adı yurd yeri ilə qoşa çəkilən tanınmış alim, təcrübəli pedaqoq, nəcib insan Nazir Əsədovdur. Qarşımızda mənalı bir ömür səhifələnir... Onun doğma yurdda keçirdiyi xoşbəxt uşaqlıq, Dərələyəz mahalında o zaman yeganə məktəb olan, müəlliflərin də yazdığı kimi, ətraf bölgələr üçün də universitet rolunu oynayan Qovuşaq kənd orta internat məktəbinin kollektivi və yetirmələri bir vətəndaşın, alimin, ziyalının çıxdığı mühitdən soraq verir. Azərbaycan Dövlət Pedaqoji Universitetində Tarix fakültəsinin dekan müavini və digər vəzifələrdə çalışmaqla məhsuldar elmi-pedaqoji fəaliyyət göstərən bir alimin yüksək əxlaqi keyfiyyətləri, mənəviyyatı ilə tanış oluruq. Alim dostları, həmkarları, doğmaları – ADPU-nun Tarix fakültəsinin dekan müavini Habil Həsənov, universitetin dosentlərindən Səmayə Mustafayeva, Vurğun Məmmədov, filologiya üzrə fəlsəfə doktoru, şair-publisist, Azərbaycan Jurnalstlər Birliyinin üzvü Alı Səfolu və digərlərinin xatirələri vasitəsilə Nazir müəllimin acılı-şirinli həyat yolu canlanır qarşımızda.

Kitab Nazir Əsədovu ilk növbədə vətənpərvər, ürəyi Vətən sevgisi ilə alışıb yanan bir ziyalı kimi oxucuya tanıdır. Onun təsəvvüründəki "Vətən sevgisi" anlayışı gənc nəsil üçün örnəkdir: "Vətən sevgisi insanın qanına, canına, mənəviyyatına hopan, ürəkləri titrədən, özündən asılı olmayaraq ondan danışanda səni yerindən oynadan, sənə həmişə hər yerdə həyəcan gətirən bir duyum və hissdir. Bu hiss mənim dünyamda o qədər yüksək bir yerdədir ki, onu duymaq hər insana nəsib olmaz və hər bir insan da o hissi anlamaz... Vətəni sevmək böyük bir əxlaqi dəyərdir". Təbiət aşiqi, Azərbaycanın müxtəlif bölgələrini qarış-qarış gəzib-dolaşan Nazir müəllimin Vətən sevgisi dogma təbiətin ecazkar, füsunkar gözəlliklərinə bağlılığından irəli gəlirdi. Həm də bu bir "yurd axtarışı" idi. İtiyi itmiş adamlar kmi hər təbiət gözəlliyində bir yurdabənzərlik tapmaqla ovunmaq idi. Təzadə bax ki, bir zamanlar – 1983-cü ildə "Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları arasında əməkdaşlıq" mövzusunda dissertasiya müdafiə edən tarixçi alim qalan sonrakı ömrünü yurd həsrəti, mənfur düşmənlərimizin ağ yalan və böhtanlarına tutarlı cavab verməklə keçirir. Kitabı səhifələdikcə aydın görünür ki, dost, qonşu deyib bağrımıza basdığımız azğın, mənfur ermənilərin xəyanəti, qondarma "xalqlar dostluğu" ideologiyasının çürüklüyü, astar üzünün ortaya çıxması Nazir müəllimi elə yurd itkisi qədər də dərindən sarsıdıb.

Yeni nəşr mərhum ziyalımızın 65 illiyinə qədirbilən dost payı olmaqla yanaşı, Nazir Əsədovun Dərələyəz haqqında kitab yazmaq, onun tarixini, təbiətini, özünəməxsusluğunu sevdirmək istəyi ilə bağlı yarımçıq arzularını gerçəkləşdirmək baxımından da qiymətlidir. Yeri gəlmişkən, Azərbaycan elmi ictimaiyyətinə yaxşı tanış olan, dəyərli elmi tədqiqatların müəllifi, hörmətli professorumuz Zəhmət Şahverdiyevlə yanaşı digər müəllif, ixtisasca humanitar sahənin adamı olmayan, 11 kitabın və metodik vəsaitin müəllifi Rövşən Asifoğlunun da kitabın araya-ərsəyə gəlməsindəki zəhmətini, payını xüsusi qeyd etmək istəyərdim. Kitab müəlliflərin Dərələyəzlə bağlı ilk deyil, növbəti müştərək yaradıcılıqlarının bəhrəsidir. Etiraf edim ki, "Mənalı ömrün səhifələri" istər əzəli Azərbaycan torpağı Dərələyəzi, istərsə də Nazir Əsədov şəxsiyyətini, onun elmi-pedaqoji fəaliyyətini qismən işıqlandırıb. Aydınlıq gətirməli çox məqamlar, müəyyən natamamlıqlar var. Ancaq kitabı sevdirəcək ən önəmli cəhət səmimiyyətlə, Vətənə məhəbbətlə yazılmasıdır. Əsərin qəhrəmanı, tarixçi alim, dəyərli ziyalı Nazir Əsədovun həyat qayəsi, kitabın ana məramı budur: "Vətənə sevgi Allaha imandan yaranıb"! Bu imanın işığında yetişən nəsil nə vaxtsa ulu babalarının halal torpaqlarına yiyə çıxmağı bacaracaq, "Vətənə gəldim, imana gəldim!" deyəcək.



KAMBOCA: ANQKOR VAT MƏBƏDİ

ANQKORVOAT

Dünyanın ən böyük məbəd kompleksi Anqkor Vat məbədi XII əsrin I yarısında II Suryavarmanın hakimiyyəti dövründə inşa edilib. Bura tanrı Vişnaya həsr edilmiş nəhəng hinduizm məbədi kompleksidir. Anqkor Vat dünyanın nəhəng mədəni tikilisi və arxeoloji abidələrindən biri sayılır.

XIX əsrdən bəri Kamboçanın bayrağında əks edilən Anqkor Vat məbəd kompleksi Siempeap şəhərindən 5 km aralıda yerləşir. Məbəd özündə hind mifologiyasına, qədim hind eposlarına aid barelyefləri, təqribən 2000-ə yaxın apsar fiqurları cəmləyib.

Mərkəzdəki qüllə ibadətgahdan 42 m hündürlüyündə, ümumilikdə yerdən isə 65 m hündürlüyündədir.

Məbəd kompleksi Avropa sivilizasiyasına 1858-ci ildə fransız arxeoloq Anri Muo tərəfindən tanıdılıb.

Anqkor Vat 1992-ci ildə UNESCO-nun Ümumdünya Mədəni İrsinin siyahısına salınıb.





Valideynlərin və şagirdlərin nəzərinə!

Dünya məktəbi

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-ci tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

Məktəbəqədər hazırlıq

2016-2017–ci il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (+99412) 563 59 40 /47/48
Mob.: (+99470) 844 08 88
E-mail: info@dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (+99412) 563 59 43/ 45
Mob.: (+99470) 560 15 18
E-mail: bagca@dunyaschool.az

http: //dunyaschool.az



Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:

I qrup üzrə:

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Biotibbi texnika mühəndisliyi
- Mexanika mühəndisliyi

II qrup üzrə:

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

III qrup üzrə:

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)
- Dizayn

IV qrup üzrə:

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya

Ünvan: Məhsəti küçəsi, 41
(Neftçilər metrosunun yaxınlığında)
Əlaqə telefonları: (012) 323-93-13, (012) 408-81-78, (012) 421-79-27
Faks: (012) 498-93-79
İnternet: http//www.khazar.org

XƏZƏR UNİVERSİTETİ

Xəzər Universiteti
Xəzəri ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.
Xəzər Universiteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və diplomları Avropa və Amerikanın universitetləri tərəfindən tanınır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

QS (World University Rankings) təşkilatının 2015-ci il sentyabrın 15-də elan etdiyi reytinq cədvəlinə əsasən Xəzər Universiteti dünyanın ən yaxşı 700 universiteti arasında yer almışdır.

2015-ci il oktyabrın 21-də QS (World University Rankings) təşkilatı 2015/16-cı tədris ili üçün inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin 2-ci illik reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycandan ilk 70 ali təhsil müəssisəsi arasında yer almış tək universitetdir.

***

Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlüklə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.

Professor Öjdər Ağayev,
Azərbaycan Təhsil Şurasının sədri

Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.